HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 13 (907) ■ 13 aprel 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# İlham Əliyev seçicilərin böyük əksəriyyətinin səsini qazanıb

## Mərkəzi Seçki Komissiyası prezident seçkilərinin ilkin nəticələrini açıqlayıb

Aprelin 12-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov prezident seçkilərinin ilkin nəticələri ilə bağlı mətbuat konfransı keçirib. Məzahir Pənahov 125 seçki dairəsi üzrə 5 min 641 məntəqənin hamısından məlumatların MSK-nın İnformasiya Mərkəzinə daxil olduğunu söyləyib. O, seçicilərin səsvermədə iştirak fəallığının 74,30 faiz olduğunu deyib. MSK sədri qeyd edib ki, seçki qutularından çıxarılmış seçki bülletenlərinin sayı 3 milyon 962 min 96, etibarsız hesab edilmiş səslərin sayı 12 min 490 (0,32 faiz), etibarlı hesab edilmiş səslərin sayı isə 3 milyon 949 min 606-dır (99,68 faiz). Etibarlı hesab edilən səslər prezidentliyə namizədlər arasında aşağıdakı kimi bölünüb:

Əliyev İlham Heydər oğlu - 3 milyon 397 min 664 səs (86,03%);

Əlizadə Araz Məmməd-Mübariz oğlu - 54 min 603 səs (1,38%);

Hacıyev Hafiz Ələmdar oğlu - 59 min 977 səs (1,52%);

Həsənquliyev Qüdrət Müzəffər oğlu - 119 min 390 səs (3,02%);

Quliyev Fərəc İbrahim oğlu - 46 min 10 səs (1,17%);

Məmmədov Sərdar Cəlal oğlu - 119 min 674 səs (3,03%);

Nurullayev Razi Qulaməli oğlu - 29 min 282 səs (0,74%);

Oruc Zahid Məhərrəm oğlu - 123 min 6 səs (3,11%).

Bu, ilkin nəticələrdir. Bu gündən artıq MSK-ya dairə seçki komissiyalarının rəsmi protokolları daxil olmağa başlayıb. Bu protokollar qəbul ediləcək, sənədlər araşdırılacaq, qanunvericiliyin tələbinə uyğun olaraq səsvermənin yekun protokolu hazırlanacaq, qərar qəbul ediləcək və bütün sənədlər Konstitusiya Məhkəməsinə göndəriləcək.

Məzahir Pənahov qeyd edib ki, səsvermə qanunauyğun keçirildi. Seçkiləri izləyən çoxlu sayda beynəlxalq və yerli müşahidəçi bütün bölgələrdə məntəqələrdə müşahidələr aparıb və nəticələri kütləvi informasiya vasitələrinə açıqlayıb. Bütün müşahidəçilərin seçki prosesi ilə bağlı fikirləri müsbətdir. Hətta kifayət qədər nüfuzlu beynəlxalq qurumlar seçkilərə hazırlığı və prosesin özünü nümunəvi təşkil olunmuş proses kimi qiymətləndiriblər. Müşahidəçilər, yerli və beynəlxalq KİV-lər hansısa pozuntu faktları ilə rastlaşmadıqlarını bildiriblər. Bu seçkilər Azərbaycanın həyatında tarixi bir hadisəyə çevrildi. Bu günlərdə artıq rəsmi protokolların qəbul olunması prosesi başa çatdırılacaq və Mərkəzi Seçki Komissiyası rəsmi nəticələri ictimaiyyətə açıqlayacaq.

## Azərbaycan Prezidenti təbrikləri qəbul edir

• Aprelin 11-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Hər iki prezident ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

---

• Aprelin 12-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Rusiyanın dövlət başçısı Prezident İlham Əliyevi seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycan xalqının firavanlığı və ölkəmizin inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb. O, əminliyini ifadə edib ki, Rusiya-Azərbaycan əlaqələri bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəkdir.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını bildirib. Dövlətimizin başçısı öz növbəsində Azərbaycan ilə Rusiya arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə və ölkələrimizin bir-biri ilə daha sıx əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə edib.

---

• Aprelin 12-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Belarusun dövlət başçısı İlham Əliyevi ölkəmizdə keçirilən prezident seçkilərində böyük səs çoxluğu ilə inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona xalqımızın rifahı və Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Aleksandr Lukaşenkoya minnətdarlığını bildirib. Hər iki ölkənin dövlət başçıları qarşılıqlı dostluq münasibətlərinin inkişafından məmnunluqlarını ifadə edərək, əlaqələrimizin bundan sonra da genişlənəcəyini əminliklə qeyd ediblər.

---

• Aprelin 12-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Özbəkistanın dövlət başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Şavkat Mirziyoyeva minnətdarlığını bildirib. Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildiriblər.

---

• Aprelin 12-də Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Viktor Orban İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Viktor Orbana minnətdarlığını bildirib. Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirilib, əlaqələrimizin bundan sonra da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb.

---

• Aprelin 12-də Ukrayna Prezidenti Petro Poroşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Ukraynanın dövlət başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycanın tərəqqisi və rifahı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Petro Poroşenkoya minnətdarlığını bildirib. Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluqlarını bildirərək ikitərəfli əməkdaşlığın bundan sonra da möhkəmlənəcəyini əminliklə vurğulayıblar.

---

• Aprelin 12-də Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Monqolustanın dövlət başçısı İlham Əliyevi prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edib, ona Azərbaycan xalqının və dövlətinin rifahı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Prezident Xaltmaaqiyn Battulqaya minnətdarlığını bildirib. Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyini əminliklə qeyd ediblər.

## Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciəti



Əziz həmvətənlər.

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq. Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

## Beynəlxalq müşahidəçilər: seçkilər tam şəffaf və demokratik şəraitdə keçib

■ Fransalı müşahidəçilər Azərbaycanda keçirilən prezident seçkilərinə dair bəyanat yayıblar. Müşahidəçi Mişel Teğo seçki prosesinin qanunauyğun şəkildə keçirildiyini söyləyib. O bildirib ki, səsvermə proseduru Avropa standartlarına cavab verir.

«Görüşdüyümüz digər müşahidəçilər də bizə heç bir qayda pozuntusu ilə rastlaşmadıqlarını, səsvermə prosesinin seçicilərə heç bir kənar təzyiq olmadan normal keçdiyini müşahidə etdiklərini dedilər. Seçkilər tam şəffaf keçdi. İlkin nəticələr «exit-poll»un nəticələri ilə üst-üstə düşdü. Bu seçkilər Azərbaycanda demokratik prinsiplərə uyğun atılan növbəti addım idi. Biz Azərbaycanın bu cür səyləri davam etdirməsini alqışlayırıq», - deyə müşahidəçi qeyd edib.

■ Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) və Türk Şurası Azərbaycanda keçirilmiş prezident seçkiləri ilə bağlı apardıqları birgə müşahidələrin nəticələrinə həsr olunmuş mətbuat konfransı keçiriblər.

Qeyd olunub ki, seçki məntəqələrindəki vəziyyət ölkə qanunvericiliyinə və beynəlxalq standartlara tam uyğun idi. Məntəqələrdə yüksək seçici fəallığı müşahidə edilirdi. Müşahidələr zamanı heç bir qanun pozuntusu qeydə alınmayıb. Seçkilər tam sakit, şəffaf və demokratik şəraitdə keçib.

■ «Prezident seçkilərinin yüksək səviyyədə keçirilməsi münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Seçkiləri izləmək üçün bütün beynəlxalq müşahidəçilərə bərabərhüquqlu imkan yaradılmışdı. Səsvermədə gənclərin xüsusi fəallığını müşahidə etdik».

Bu fikirləri Azərbaycanda keçirilən prezident seçkilərini izləyən Bosniya və Herseqovina-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Predraq Kojul müşahidələrin yekunlarına dair Bakıda keçirilən mətbuat konfransında söyləyib.

■ «Azərbaycanda prezident seçkiləri azad və ədalətli şəkildə keçirilib. Seçicilərə hər hansı təzyiq müşahidə olunmayıb. Seçki prosesinin tam qanunauyğun şəkildə keçməsi münasibətilə Azərbaycan xalqını təbrik edirəm».

Serbiya parlamentinin sədr müavini Verolyub Arsiç Bakıda keçirdiyi mətbuat konfransında belə deyib.

Azərbaycan bütün sahələrdə uğurlu inkişafını davam etdirir — səh. 2

Sənaye sektorunun inkişafı iqtisadi diversifikasiyanın əsasını təşkil edir — səh. 3

16 aprel mənfəət və gəlir vergisi üzrə cari ödəmələrin son günüdür! — səh. 4

POS-terminallardan istifadə genişlənməlidir — səh. 5

# Azərbaycan bütün sahələrdə uğurlu inkişafını davam etdirir

**Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

İclasda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı bildirib ki, birinci rübün yekunları 2018-ci ilin ölkəmiz üçün uğurlu il olacağına əminlik yaradır. Qeyd olunub ki, qarşıda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilir, ölkəmiz güclənir, hərtərəfli inkişaf edir. Hökumət bu müsbət dinamikanı ilin sonuna qədər saxlamaq əzmindədir: «2018-ci ilin birinci rübündə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artıb. Bu, çox gözəl göstəricidir və dünya miqyasında mövcud olan artımdan daha yüksək göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artmışdır. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir. Birinci rübdə sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə təxminən 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Bu, onu göstərir ki, ölkəmiz xarici investorlar üçün çox cəlbedicidir. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artmışdır və hazırda 44,2 milyard dollara bərabərdir. Bizim xarici ticarət dövriyyəmiz 31 faiz artmışdır. Bu da çox gözəl göstəricidir. İxrac isə 37 faiz artmışdır, daha doğrusu, qeyri-neft ixracı. Ümumi ixrac 24 faiz, qeyri-neft ixracı 37 faiz artmışdır. İş yerlərinin açılmasına gəldikdə, birinci rübdə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimi iş yeridir. Artıq biz 1 milyon 500 min iş yerinin yaradılmasına yaxınlaşırıq. Əgər biz birinci rübün rəqəmlərini də əlavə etsək, 2004-cü ildən bu günə qədər Azərbaycanda təxminən 1 milyon 500 min yeni daimi iş yeri yaradılmışdır. İnflyasiya birinci rübdə cəmi 4 faiz olmuşdur. Əhalinin gəlirləri təxminən 10 faiz artmışdır».

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, bu ilin birinci rübündə respublikamızda keçirilən bir neçə mötəbər beynəlxalq tədbir Azərbaycanın nüfuzunu daha da artırıb və bizi dünyaya müasir, inkişafda olan ölkə kimi təqdim edib: «Mən bu tədbirlər arasında VI Bakı Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forum qısa müddət ərzində dünya miqyasında böyük hörmət qazanmış bir beynəlxalq platformadır. Dünyada keçirilən aparıcı forumlar arasında Bakı Beynəlxalq Forumu qısa müddət ərzində öz layiqli yerini tuta bilmişdir. Birinci rübdə ölkəmizə 7 dövlət və hökumət başçısı səfər etmişdir. Bu səfərlər də ölkəmizin dost ölkələrlə ikitərəfli münasibətlərinin inkişafı üçün önəmli rol oynayır. Bizim təşəbbüsümüzlə bu il ilk dəfə olaraq regional əməkdaşlıq çərçivəsində qonşularımızla dördtərəfli əməkdaşlıq formatına start verildi. Əlbəttə ki, regionda yaşanan problemlərin həlli, sabitliyin, təhlükəsizliyin, inkişafın təmin edilməsi üçün bu əməkdaşlıq formatı və digər əməkdaşlıq formatları böyük rol oynayır. Bu il ölkəmizdə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Bu, çox önəmli beynəlxalq tədbirdir. Bütün bu beynəlxalq tədbirlər çərçivəsində və eyni zamanda, Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi».

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələyə toxunan dövlətimizin başçısı bildirib ki, bütün beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən qərar və qətnamələr qəbul edib və bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır: «Bu görüşlərin və ümumiyyətlə, bu istiqamətdəki fəaliyyətimizin nəticəsi ondan ibarətdir ki, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi baza tam yaradılıb və heç bir dövlət qondarma «Dağlıq Qarabağ respublikası»nı tanımır və tanımayacaq. Kriminal xunta rejimi tərəfindən ötən il keçirilmiş dırnaqarası referendumu da heç kim tanımayıb. Bu, işğalçılara beynəlxalq aləm tərəfindən vurulan növbəti bir zərbədir. Bizim səylərimiz nəticəsində bu qondarma qurum regionun xəritəsində qara ləkə kimi tanınır və biz bundan sonra da bu istiqamətdə ardıcıl fəaliyyətimizi göstərməliyik. Beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox önəmlidir. Düzdür, bunun praktiki nəticələri yoxdur, torpaqlarımız hələ də işğal altındadır. Biz torpaqlarımızın bir hissəsini hərbi yolla azad etdik, ancaq bununla bərabər münaqişənin həlli üçün hüquqi baza əsas şərtdir. Bu məsələdə Azərbaycan tam üstünlüyü əldə edib və növbəti illərdə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz daha da güclənəcək».

Azərbaycan Prezidenti ordumuzun gücləndiyini, bu günlərdə keçirilmiş genişmiqyaslı hərbi təlimlərin bir daha ölkəmizin gücünü göstərdiyini, düşməni qorxuya saldığını diqqətə çatdırıb. Bildirib ki, hərbi amil münaqişənin ədalətli həlli üçün mühüm rol oynayır və bundan sonra da hərbi potensialımızı gücləndirəcəyik. Bununla paralel olaraq bütün regional addımlar, təşəbbüslər həm ölkəmizin maraqlarının təmin edilməsinə, Azərbaycan iqtisadiyyatının inkişafına, eyni zamanda, işğalçı dövlətin təcrid vəziyyətinə salınmasına hesablanıbdır. Bütün bu amillər artıq birləşib və öz səmərəsini verməkdədir.

Sosial sahədə aparılan islahatlardan və infrastrukturun yeniləşməsindən söhbət açan dövlətimizin başçısı birinci rübdə maaşların və pensiyaların artırıldığını, bu məqsədlər üçün dövlət büdcəsindən yüz milyonlarla manat vəsait ayrıldığını vurğulayıb: «Bu addım bir daha onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İmkan yarandıqca biz dərhal birinci addımı sosial istiqamətdə atdıq. İnsanların sosial müdafiəsinin təmin edilməsi üçün praktiki addımlar atmışıq. O ki qaldı, sosial infrastrukturun yaradılmasına, birinci rübdə Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapır. Yeni xəstəxanalar, məktəblər tikilir. İlin əvvəlindən mənim tərəfimdən bu məsələlərin həlli üçün bir çox sərəncamlar verilmişdir. Yeni idman obyektləri, yeni «ASAN xidmət» mərkəzləri tikilir. Yəni, bu gün Azərbaycanda tikinti sektorunda böyük canlanma var. Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə sosial evlərin tikintisində irəliləyiş var. Ümumiyyətlə, indi özəl sektora, tikinti sektoruna böyük vəsait qoyulur. Təkcə Bakı şəhərində təqribən 150-yə yaxın hündürmərtəbəli binanın tikintisi nəzərdə tutulur. Birinci rübdə bütün infrastruktur layihələri uğurla icra edilib. Əlbəttə ki, biz Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı çox önəmli addımlar atmışıq. Fevral ayında Bakıda 4-cü Məşvərət Şurası keçirilmişdir. Bu Məşvərət Şurasında aparılan müzakirələrin nəticəsində bəyanat qəbul edilmişdir. Bu sənəddə ölkəmizin liderliyi bir daha əksini tapır. Cənub Qaz Dəhlizinin reallaşmasına az vaxt qalıb. Biz bu istiqamətdə uğurla addımlayırıq. Bu il bu layihənin 3 önəmli hissəsi başa çatacaq - TANAP, Cənubi Qafqaz Kəməri və «Şahdəniz-2». Yəni, bu, tarixi nailiyyətimizdir və biz bu il bu istiqamətdə önəmli addımlar atmışıq».

...Sonra «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev, «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov, Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Samir Nuriyev çıxış edərək rəhbərlik etdikləri sahələr üzrə görülən işlər və qarşıdakı dövrdə nəzərdə tutulan layihələr barədə məlumat veriblər.



> Son vaxtlar vergi sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi, bildiyimə görə, artıq biznes dairələri tərəfindən də müsbət qarşılanır və bu istiqamətdə əlavə addımlar atılacaq

İclasda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev bildirib ki, ölkəmizdə aparılan islahatlar davam etdiriləcək, sahibkarlığa dəstək tədbirləri artırılacaq, qeyri-neft sektorunun inkişafı əsas prioritet olacaqdır və bu istiqamətdə əlavə tədbirlər görüləcək: «Bütün digər sahələrdə islahatlar aparılacaqdır ki, ölkəmiz daha da güclənsin, müasirləşsin və Azərbaycanda dayanıqlı uzunmüddətli inkişaf təmin edilsin. Bu məqsədlərə nail olmaq üçün bir çox məsələlər gündəlikdədir. Onlardan biri biznes mühitinin yaxşılaşdırılması məsələsidir. Bu istiqamətdə son illər ərzində yaxşı nəticələr var və Dünya Bankı tərəfindən təqdim olunmuş «Doing Business» hesabatında Azərbaycan ardıcıl şəkildə öz mövqelərini gücləndirir, daha da yüksək pilləyə qalxır. Ancaq biz yenə də bu istiqamətdə səylərimizi davam etdirməliyik, xüsusilə bizi geriyə çəkən məsələlərdə daha da ciddi addımlar atmalıyıq və bunu edirik. Son vaxtlar vergi sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi, bildiyimə görə, artıq biznes dairələri tərəfindən də müsbət qarşılanır və bu istiqamətdə əlavə addımlar atılacaq. Mən əvvəlki çıxışlarda da dəfələrlə demişəm ki, biz dünyada mövcud olan ən müsbət, ən şəffaf praktikanı Azərbaycanda tətbiq etməliyik və bizim bütün maliyyə sistemimiz tam şəffaf mexanizm kimi işləməlidir».

Dövlətimizin başçısı ölkədə sənayenin inkişafı ilə bağlı zəruri işlərin görüləcəyini, sənaye zonalarının, sənaye və aqrar parkların yaradılması istiqamətində layihələrin icra olunacağını, kənd təsərrüfatı istehsalçılarına hərtərəfli dəstək veriləcəyini vurğulayıb: «Biz ixracyönümlü kənd təsərrüfatı sahələri üzrə işlərimizi bundan sonra da davam etdirəcəyik. Mən bir müddət bundan əvvəl tapşırıq vermişdim ki, üzümçülüklə, şərabçılıqla bağlı olan məsələlər ciddi təhlil edilsin. Çünki mövcud vəziyyət bizi heç cür qane edə bilməz. İndi ilkin məlumat ondan ibarətdir ki, bizim kifayət qədər emal gücümüz, yəni, şərab zavodlarımız var, amma onların bir çoxu çox zəif işləyir. Yəni, istehsal gücünün 20-30 faizi səviyyəsində işləyir. Ona görə, bizim indi vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər».

Prezident İlham Əliyev dövlətin biznes sektoruna göstərdiyi dəstəyin müqabilində sahibkarların da fəal və daha təşəbbüskar olmasını tövsiyə edib: «Bütün bu işlər verilən tapşırıqlar və onların icrası nəticəsində mümkün olmuşdur. Əgər biz oturub gözləsəydik ki, kimsə gəlib bunu bizim əvəzimizə edəcək, hansısa investor gəlib pul qoyacaq, bunların heç biri mümkün olmazdı. Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, sahibkarlara həm dəstək vermək, həm də yol göstərmək lazımdır. Bir çox hallarda onlar passivlik göstərirlər, təşəbbüs göstərmirlər, hətta yetişdirdikləri məhsulu xaricə aparmağa belə tənbəllik edirlər. Gözləyirlər ki, kimsə gəlib onların qapısını döyəcək, onların məhsulunu alacaq. Onlar özləri getməlidirlər, bazarları axtarmalıdırlar, kontraktlar imzalamalıdırlar, təmaslar qurmalıdırlar. Biz hətta xarici ölkələrin televiziyalarında kənd təsərrüfatı məhsullarının reklamını da dövlət hesabına edirik. Onu da etmirlər. Yaxşı, indi bir az hərəkətə gəlsinlər. Dövlət bu qədər səy göstərir, dəstək verir, vəsait ayırır, siyasi dəstək göstərir».

Azərbaycan Prezidenti son illərdə turizmin inkişafı üçün dövlətin gördüyü işləri yüksək dəyərləndirib, amma buna baxmayaraq, turistlərin ölkəmizə daxil olduğu zaman bəzi şəxslərin yaratdığı əngəlləri də diqqətə çatdırıb: «Əfsuslar olsun ki, bu sahədə çox böyük pozuntular olmuşdur. Biz vizaları ləğv etdik. Çünki aeroportlarda turistlərə əziyyət verirdilər, əsassız pul tələb edirdilər. Bu biabırçılığı yığışdırmışıq. Bu biabırçılığı, bu pozuntuları, bu cinayəti törədənlər cinayət məsuliyyətinə cəlb olunub. Hamı bilsin ki, bu cinayətlər cəzasız qalmayacaq. Ancaq biz elə bir sistem yaratmalıyıq ki, turistləri daha çox cəlb edək. İndi aeroportlarda yeni sistem yaradılır və gələn aydan başlayaraq tətbiq ediləcək. Bizim bütün sərhəd-keçid məntəqələrimizdə qonaqlar üçün maksimum rahat şərait yaradılmalıdır. Çünki bəzi hallarda gələnləri incidirlər, yolda saxlayırlar, onlardan rüşvət, pul tələb edirlər, dilənçilik edirlər, keçidlərdə duran o adamlar xalqımızı, dövlətimizi biabır edirlər. Mən aidiyyəti qurumlara çox ciddi xəbərdarlıq etdim, onları tənbeh etdim. Bu pozuntular yığışdırılmalıdır. Ölkəmizin imicinə xələl gətirən adamlar cəzalandırılacaqlar».

Dövlətimizin başçısı su, elektrik enerjisi, qaz və digər kommunal xidmətlərin yaxşılaşdırılması, infrastruktur işlərinin davam etdirilməsi ilə bağlı müvafiq qurumlara tapşırıq və göstərişlərini verib.

# Hacı Cavad məscidinin yeni binası istifadəyə verilib

**Aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.**



Görülən işlər barədə məlumat verilərək bildirilib ki, Hacı Cavad məscidinin yeni binası 1200 kvadratmetr ərazini əhatə edir. Yalnız ibadət zalının sahəsi 400 kvadratmetrə yaxındır. Milli memarlıq üslubunda və zövqlə inşa olunan ibadət evinin günbəzinin hündürlüyü 18, minarənin hündürlüyü isə 33,7 metrdir. Məscidin daxilində xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. Məscidin müqəddəs Qurani-Kərimdən surələr yazılmış divar və sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunaraq dini rəmzlərlə bəzədilib. Eyni vaxtda 500-dən çox insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Döşəməyə xüsusi olaraq Hacı Cavad məscidi üçün toxunan yeni «Namazgah» xalı döşənib. Məscidin daxilində müasir texnologiyalarla işləyən havalandırma sistemləri quraşdırılıb.

Hacı Cavad dini icmasının üzvləri ilə görüşən dövlətimizin başçısı bildirib ki, bu hadisə Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir: «Bu münasibətlər Azərbaycanda nümunəvi xarakter daşıyır. Bildiyiniz kimi, dünən prezident seçkiləri keçirilmişdir və seçkilərdən sonra birinci tədbir, bax, bugünkü tədbirdir. Bu da dövlət-din münasibətlərinin bariz nümunəsidir, onun təzahürüdür. Mən çox şadam ki, son illər ərzində Azərbaycanda bizim dini-mədəni abidələrimiz qorunur, bərpa olunur. Bu, bizim tariximizdir».

Sonra Prezident İlham Əliyevə Quran hədiyyə edilib, xatirə şəkli çəkdirilib.

# Rusiya mətbuatı Azərbaycan haqqında...

**Rusiyanın aparıcı mətbuat orqanları və televiziya kanalları İlham Əliyevin prezident seçkilərində inamlı qələbə qazanmasını geniş işıqlandırıb.**

«Nezavisimaya qazeta» seçkilər günü Azərbaycan Mərkəzi Seçki Komissiyasının hazırkı Prezident İlham Əliyevin böyük səs çoxluğu ilə irəlidə getməsi barədə yaydığı informasiyaları dərc edib. Qəzet yazır ki, hələlik seçkilərin son nəticələri barədə rəsmi məlumat açıqlanmasa da, İlham Əliyevin inamlı qələbəsi heç kimdə şübhə doğurmur. Rusiya Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun elmi işçisi Aleksandr Karavayev qəzetə müsahibəsində bildirib ki, Moskva Azərbaycanda sabitliyin olmasında maraqlıdır. İki ölkə aqrar, energetika, nəqliyyat sahələrində uğurlu əməkdaşlıq edir, perspektivli sənaye layihələri həyata keçirməyi planlaşdırır. Bundan əlavə, politoloq Azərbaycanın radikal dini cərəyanlar və «rəngli inqilablar»la mübarizədə Rusiyanın mühüm müttəfiqi olduğunu da nəzərdən qaçırmır. «Bu cür müttəfiqləri itirmək olmaz», - deyə A.Karavayev qeyd edib.

Rusiyanın Birinci televiziya kanalı Azərbaycanda prezident seçkilərindən hazırladığı süjetdə hazırkı Prezident İlham Əliyevin böyük səs çoxluğu ilə qələbəsindən və xalqa müraciətindən söhbət açıb. Süjetdə seçki məntəqələri bağlandıqdan sonra Bakı sakinlərinin İlham Əliyevin qələbəsini böyük coşqu ilə bayram etməsindən danışılıb. Kanalın müxbiri vurğulayıb ki, seçki məntəqələrində bülletenlərin hesablanması müşahidəçilərin nəzarəti altında aparılıb.

«Mir» telekanalı da seçkilərin ilkin nəticələri elan olunduqdan sonra Azərbaycan paytaxtında hazırkı Prezident İlham Əliyevin qələbəsinin bayram edilməsi barədə süjet yayımlayıb. Süjetdə bildirilir ki, Bakı küçələrində öz namizədlərinin qələbəsini qeyd edən sakinlər telekanala müsahibələrində deyiblər ki, Azərbaycan xalqı uzaqgörən və güclü lideri ilə ölkənin qüdrətini yüksəltməkdə davam edəcək.

Rusiyanın digər federal telekanalları, o cümlədən «Rossiya 24», «NTV», «Beşinci kanal», habelə TASS, «Ria Novosti» informasiya agentlikləri də Azərbaycanda prezident seçkilərinin gedişini və hazırkı Prezident İlham Əliyevin inamlı qələbəsini geniş işıqlandırıb, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan liderini təbrik etməsini diqqətə çatdırıblar.

# Sənaye sektorunun inkişafı iqtisadi diversifikasiyanın əsasını təşkil edir



Ölkəmizdə sənaye sektorunun inkişaf etdirilməsi üçün ciddi islahatlar aparılır, kompleks tədbirlər görülür. Bu tədbirlərdən biri də «Azərbaycan Sənaye Korporasiyası» ASC-nin yaradılmasıdır. Suallarımızı səhmdar cəmiyyətin baş direktoru Kamran Nəbizadə cavablandırır.

**- Kamran müəllim, «Azərbaycan Sənaye Korporasiyası» ASC hansı zərurətdən yarandı?**

- Ölkədə iqtisadiyyatın tarazlaşdırılmış, rəqabətqabiliyyətli və dayanıqlı inkişafını təmin etmək dövlətin iqtisadi siyasətinin prioritetlərindəndir. Aparılan davamlı iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində, bütün sahələrdə olduğu kimi, sənayenin inkişafında da böyük uğurlara nail olunmuş, sənaye məhsulları istehsalının həcmi xeyli artmışdır. Uğurlu inkişafın təmin edilməsi üçün növbəti dövrlərdə də müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla, iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin balansına götürülmüş əmlakın daha səmərəli idarə edilməsi zəruridir.

«Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyəti «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanının tətbiqi ilə əlaqədar dövlət əmlakının idarə edilməsinin səmərəliliyini artırmaq, korporativ idarəetmə prinsiplərinə əsaslanan hesabatlılıq və nəzarət sistemini formalaşdırmaq, dövlətə məxsus müəssisələr arasında əlverişli kooperasiya əlaqələrinin yaradılmasına və istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılmasına nail olmaq məqsədilə yaradılmışdır. Səhmdar cəmiyyətinin qarşısına qoyulmuş başlıca hədəf ölkəmizdə aparılan sənayeləşmə ilə bağlı islahatların miqyasının daha da genişlənməsinə nail olmaqdır. Sənaye sektorunun inkişafı iqtisadi diversifikasiyanın əsasını təşkil edir. Bu baxımdan, yeni qurumun formalaşdırılması qarşıya qoyulmuş hədəflərə çatmaq baxımından zəruridir.

---

**- Rəhbərlik etdiyiniz qurumun fəaliyyətinin əsas istiqamətləri nədən ibarətdir?**

- Bütövlükdə götürsək, beynəlxalq təcrübədə bu istiqamətdə həm dövlət, həm də publik-hüquqi şəxs formasında qurumlar fəaliyyət göstərir. Bu tip qurumların məqsədi konkret olaraq seçilmiş sektorlarda islahatı dəstəkləmək və həmin sektorların inkişafına nail olmaqdır. «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının «Azərbaycan Beynəlxalq Bankı» Açıq Səhmdar Cəmiyyətindən aldığı, problemli aktivlərin (borcların) əvəzində əldə etdiyi, Azərbaycan Respublikasının ərazisində yerləşən və onun mülkiyyətində (balansında) olan əmlak, o cümlədən müvafiq hüquqi şəxslərə məxsus olmuş dövlət əmlakının fəaliyyətinin təkmilləşdirilməsi və infrastruktur təminatının yaxşılaşdırılması, idarəetmə sistemlərinin müasirləşdirilməsi, bu sahədə şəffaflığın artırılması, korporativ idarəetmə prinsiplərinə əsaslanan hesabatlılıq və nəzarət sisteminin formalaşdırılması «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin əsas fəaliyyət istiqamətidir.

---

**- Korporasiyanın fəaliyyətə başlaması sənaye məhsullarının istehsalı prosesində nə kimi kəmiyyət və keyfiyyət dəyişikliklərinə gətirib çıxaracaq?**

- Sənaye məhsullarının istehsalı prosesinin yaxşılaşdırılması ilə bağlı tədbirlər planına uyğun olaraq, müvafiq sahədə dövlət və özəl sektor arasında əməkdaşlığın təmin edilməsi, malların (işlərin, xidmətlərin) istehsalına sərf olunan vaxtın və xərclərin azaldılması məqsədilə istehsalatda qabaqcıl texnologiyaların tətbiq olunması, məhsulların istehsalı, emalı, saxlanması və satışı mərhələlərini əhatə edən səmərəli təsərrüfatçılıq sisteminin yaradılması, qurumun tabeliyindəki müəssisələrlə digər subyektlər arasında təchizat, tədarük və satış mərhələlərində koordinasiyanın təmin edilməsi ilə bağlı silsilə layihələr hazırlanmışdır. Qeyd edilən layihələrin həyata keçirilməsi sənayenin bütün sahələrini əhatə edəcək, rəqabətədavamlı istehsalın təmin olunmasına şərait yaradacaqdır.

> Nəzərdə tutulan layihələrin həyata keçirilməsi sənayenin bütün sahələrini əhatə edəcək, rəqabətədavamlı istehsalın təmin olunmasına şərait yaradacaq

**- Korporasiyanın fəaliyyəti aqrar sənaye üzrə istehsal sahələrinə necə təsir göstərəcək? Bu sahədə nə kimi yeniliklər gözlənilir, hansı işlər planlaşdırılır?**

- Hazırda ipəkçilik, pambıqçılıq, tütünçülük, heyvandarlıq kimi aqrar sənaye sahələrini əhatə edən müəssisələrin fəaliyyətinin bərpası və yenidən qurulması istiqamətində işlər görülür. Onlardan bir neçəsini sadalamaq da olar. Misal üçün, tütünçülük sahəsində yeni yaradılmış «Azərtütün» MMC-də istehsalın həm keyfiyyətinin, həm də kəmiyyətinin artırılması ilə əlaqədar tütünqurutma kameralarının alınması, hazırda Balakən rayonunda yeni tədarük-qurutma məntəqəsinin tikintisi ilə bağlı işlər aparılır. Pambıqçılıq sahəsində məhsuldarlığın artırılması ilə bağlı əkin üçün əlavə torpaq sahələri ayrılmış, toxum və gübrələrin keyfiyyətli və vaxtında tədarük edilməsi, pambıq istehsalının və yığımının təkmilləşdirilməsi ilə əlaqədar fermerlərlə və nəzarətçilərlə işin təşkili sürətləndirilmişdir. Hazırda «Azərİpək» MMC-nin fəaliyyəti yenidən qurulur. Məhsuldarlığın artırılması və keyfiyyətli məhsul əldə olunması üçün yeni baramaboğanların alınması istiqamətində işlər görülür və mövsümün başlanmasına qədər yekunlaşdırılacaq. İpəkdən son məhsulların alınması üzrə strateji planlaşdırma işləri aparılır.

---

**- Dövlətə məxsus müəssisələr arasında əlverişli kooperasiya əlaqələrinin yaradılmasına və istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılmasına nail olmaq istiqamətində hansı işlər görülür?**

- İqtisadiyyatın şaxələndirilməsinə nail olmaq istəyiriksə, birmənalı şəkildə sənaye sektorunun inkişafının dəstəklənməsinə və sənayenin həm ÜDM-in formalaşmasında, həm də ixracatda payının artırılmasına ehtiyac var. Çünki sənayeləşmə ixracatın daha innovativ şaxələndirilməsi baxımından çox vacibdir. «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin yaradılması nəticə etibarilə sənaye sektorunun inkişafına ciddi təkan vermiş olacaq. Xüsusilə də dövlət mülkiyyətinin tənzimlənməsi və bu sahədə nəzarətin gücləndirilməsi vacibdir. Qurumun fəaliyyətinin yaxşı təşkil edilməsi son nəticədə iqtisadiyyatda sənayenin payının artmasına gətirib çıxaracaq.

Ümumilikdə desək, bütün sahələrdə araşdırmalar aparılır və bunun sayəsində korporasiyanın nəzdində olan müəssisələrin fəaliyyətini daha səmərəli qurmaq, maliyyə göstəricilərini optimallaşdırmaq, rentabelliyi artırmaq mümkün olacaq. Bu da son nəticədə həm müəssisələrdə çalışan insanların rifahının yüksəlməsi, həm də dövlət büdcəsinə əlavə gəlirlərin daxil olması deməkdir.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Dövlət büdcəsinin gəlir və xərcləri açıqlanıb

2018-ci ilin birinci rübündə dövlət büdcəsinin mədaxili 4562,9 milyon manat, xərcləri 4408,0 milyon manat olub, 154,9 milyon manat məbləğində (artıqlıq) profisit yaranıb. Maliyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, 2018-ci ilin birinci rübündə dövlət büdcəsinin mədaxili 4428,5 milyon manat proqnoza qarşı 4562,9 milyon manat və ya 134,4 milyon manat (3,0 faiz) çox olub.

2018-ci ilin birinci rübündə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 1436,5 milyon manat vəsait daxil olub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 15,8 milyon manat və ya 1,1 faiz çoxdur. Həmin vəsaitin 67,5 faizi və yaxud 969,7 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür. Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə 726,9 milyon manat vəsait təmin edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 27,3 faiz və yaxud 155,8 milyon manat çoxdur. Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 79,3 milyon manat təşkil edib. Sair daxilolmalar üzrə büdcəyə 21,2 milyon manat vəsait daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 71 faiz və yaxud 8,8 milyon manat çoxdur. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə 2299,0 milyon manat vəsait transfert edilib.

2018-ci ilin birinci rübündə dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 108,8 faiz və yaxud 4408,0 milyon manat icra olunub.

İqtisadi təsnifata uyğun olaraq cari ilin ilk üç ayında dövlət büdcəsi xərclərinin 40,0 faizi və ya 1761,3 milyon manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 7,7 faiz və ya 125,6 milyon manat çoxdur.

Dövlət büdcəsi xərclərinin 2299,1 milyon manatı və ya 52,2 faizi cari xərclərə, 1627,2 milyon manatı və ya 36,9 faizi əsaslı xərclərə, 481,7 milyon manatı və ya 10,9 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Cari ilin birinci rübündə dövlət əsaslı vəsait qoyuluşu xərclərindən elm, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 168,9 milyon manat, enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidənqurulmasına və digər sahələrə 655,6 milyon manat, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə 21,2 milyon manat vəsait yönəldilib.

2018-ci ilin ilk üç ayında büdcə təşkilatlarının təqdim etdikləri xərc sifarişləri üzrə xəzinədarlıq orqanları tərəfindən qəbul edilmiş öhdəliklər tam və vaxtında maliyyələşdirilib.

Həmçinin cari ilin birinci rübündə icmal büdcənin gəlirləri 7062,5 milyon manat olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1412,9 milyon manat və ya 25 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 4757,9 milyon manat icra olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1994,8 milyon manat və ya 29,5 faiz azdır. İcmal büdcədə 2304,6 milyon manat artıqlıq (profisit) yaranıb.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Regionlarda fəaliyyət göstərən vergi orqanlarının nəzərdə saxladıqları mühüm məsələlərdən biri də gənc nəslin gələcəyin vergi ödəyicisi kimi yetişdirilməsidir. Orta məktəb şagirdlərinin vergilər haqda anlayış və biliklərini artırmaq, gələcəyin potensial vergi ödəyicilərinə vergi adətlərini aşılamaq məqsədilə 3 saylı Ərazi Vergilər idarəsi tərəfindən Quba şəhərindəki 2 saylı və Qusar şəhərindəki 6 saylı tam orta məktəbdə görüşlər keçirilmişdir. Məktəblilərə "İqtisadiyyat nədir?", "Yeraltı və yerüstü sərvətlər", "Fiziki və hüquqi şəxslər", "Gəlir və mənfəət vergiləri", eləcə də 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Vergilər uşaqların gözü ilə" rəsm və inşa müsabiqəsinin keçirilməsi qaydaları barədə məlumatlar verilmişdir. Görüş zamanı uşaqlar üçün maraq doğuran məsələlər ətrafında söhbət aparılmışdır.

# Əməkhaqqından vergi necə tutulur?

## «İşsizlikdən sığorta haqqında» Qanunun tətbiqindən sonra bu hesablamada müəyyən dəyişikliklər edilib

Əməkhaqqından verginin tutulması Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənir. Muzdla işləyən fiziki şəxslərin aylıq gəlirinin (o cümlədən əmək haqqının) 2500 manatadək olan hissəsindən 14 faiz, 2500 manatdan çox olduqda isə 350 manat əlavə edilsin 2500 manatdan çox olan məbləğin 25 faiz dərəcəsi ilə vergi tutulur. Əməkhaqqı 2500 manata qədər olduqda əməkhaqqından ölkə üzrə yaşayış minimumu (173 AZN - 2018-ci il üzrə) çıxıldıqdan sonra qalan məbləğdən 14% gəlir vergisi hesablanır. İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.

Bundan başqa, «Sosial sığorta haqqında» Qanuna əsasən, əmək müqaviləsi ilə işləyənlər üçün hesablanmış əməkhaqqının 3%-i miqdarında məcburi dövlət sığorta haqqının ödənilməsi nəzərdə tutulub. Qeyd edək ki, əmək müqaviləsi ilə işləyən hər bir vətəndaş Elektron Hökumət Portalında şəxsi kabinetini yaratmaqla işlədiyi illər ərzində müəssisə tərəfindən onun əvəzinə vergi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ödənilib-ödənilmədiyini və eyni zamanda illər ərzində ödənilmiş vergi və sosial sığorta haqları barədə məlumat əldə edə bilər.

2018-ci il yanvarın 1-dən qüvvəyə minmiş «İşsizlikdən sığorta haqqında» Qanunun tələblərinə əsasən, işçilərin əməkhaqqının 0,5%-i, işəgötürən tərəfindən isə əməkhaqqı fondunun 0,5%-i məbləği həddində sığorta haqqı hər təqvim ayı ərzində DSMF orqanına ödənilir.

Bir neçə misal üzərində əməkhaqqının hesablanması qaydasına baxaq:

**misal 1**

**300 AZN əməkhaqqı alan şəxsdən**

1) 300-173=127-nin 14%-i, yəni 17.78 AZN gəlir vergisi hesablanır.
2) 300-ün 3%-i, yəni 9 AZN məcburi dövlət sosial sığorta haqqı tutulur.
3) 300-ün 0,5%-i, yəni 1.5 AZN işsizlikdən sığorta haqqı

300 AZN əmək haqqının 300-(17.78+9+1.5) =
**271.72 AZN məbləği şəxsə çatacaqdır.**

**misal 2**

**2600 AZN məbləğində əmək alan şəxsdən**

1) 2500-ün 14%-i, yəni 350 AZN, qalan 100 AZN-in 25%-i, yəni 25 AZN, ümumilikdə isə 375 AZN gəlir vergisi tutulur.
2) 2600-ün 3%-i, yəni 78 AZN məcburi dövlət sosial sığorta haqqı hesablanır.
3) 2600-ün 0,5%-i, yəni 13 AZN işsizlikdən sığorta haqqı kimi tutulur.

2600 AZN əməkhaqqının 2600-(375+78+13) =
**2134 AZN məbləği şəxsə çatacaqdır.**

İşəgötürən tərəfindən isə əlavə olaraq məcburi dövlət sosial sığorta haqqı kimi əməkhaqqı fondunun 22%-i, işsizlikdən sığorta haqqı kimi isə 0,5%-i 2018-ci il 1 yanvar tarixindən etibarən DSMF-yə ödənilir.

Bu hesablanma qaydası zamanı vergi güzəştləri, həmkarlar ittifaqlarına ödənilən üzvlük haqqı kimi məbləğlər bütün müəssisələr və şəxslər üçün ümumi olmadığından qeyd edilməyib.

Bir məsələni də vurğulamaq lazımdır ki, Vergi Məcəlləsinin 102.2-ci maddəsinə əsasən aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır:

- Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının;
- Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;
- müharibə əlillərinin;
- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin);
- 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;
- qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin;
- Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin.

Vergi Məcəlləsinin 102.3-cü madəsinə əsasən I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Vergi Məcəlləsinin 102.4-cü madəsinə əsasən aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır:

-həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar;

- 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar;
- Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər;
- daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum;
- məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər. Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil edilmir.

Vergi Məcəlləsinin 102.5-ci maddəsinə əsasən qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır.

Fiziki şəxsin Vergi Məcəlləsinin 102.2-ci, 102.3-cü və 102.4-cü maddələri üzrə güzəşt hüququ olduqda, ona bu güzəştlərdən biri, məbləğcə ən böyük olanı verilir.

**misal**

Fiziki şəxs məcburi köçkün olduğu halda və əməkhaqqı 450 manat təşkil etdikdə, əməkhaqqından aşağıdakı qaydada vergi tutulur:

| | |
|---|---|
| Gəlir vergisi: | 450-173-100=177*14% = 24,78 AZN; |
| DSMF: | 450*3% = 13,5 AZN; |
| İşsizlikdən sığorta haqqı: | 450*0,5% = 2,25 AZN. |

**Vergilər çıxıldıqdan sonra ələ çatan pul:** 450-(24,78+13,5+2,25) = 409,47 AZN

**Rəşad SADIQOV**



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Yaşayış sahəsinin təqdim edilməsi

***Fiziki şəxs 4 il ərzində qeydiyyatda olduğu yaşayış sahəsini təqdim edən zaman hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin 150.1.9-cu maddəsinə əsasən torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, bu Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə, həmçinin həmin Məcəllənin 221.5-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur.

Vergi Məcəlləsinin 218.4.3-cü maddəsinə əsasən, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, həmçinin həmin Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

**Qeyd olunanlara əsasən:**

Fiziki şəxsin yaşayış yeri üzrə 5 (beş) ildən az müddətdə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsindən notarius tərəfindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ödəmə mənbəyində sadələşdirilmiş vergi hesablanır və hesablanmış vergi məbləği yaşayış sahəsini təqdim edən şəxsdən tutularaq dövlət büdcəsinə ödənilir.

Bununla yanaşı, yaşayış sahəsini satan şəxs 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu halda həmin yaşayış sahəsinin satışı sadələşdirilmiş vergidən azaddır.

# 16 aprel mənfəət və gəlir vergisi üzrə cari ödəmələrin son günüdür!

**Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra cari ödəmələri 15 gündən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.**

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

- Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.
- Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

### Gəlir vergisi (xüsusi notariuslar üzrə)

Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

### Gəlir vergisi (idman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə)

İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarış və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək «Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisi hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək «Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»ni vergi orqanına təqdim etməyə borcludurlar.

**F. İKRAMQIZI**

## E-imzanın elektron xidmətlərə inteqrasiyası

Vergilər Nazirliyinin nəzdində yaradılmış və Rabitə və Yüksək Texnologiyalar Nazirliyində akkreditə olunmuş müasir tipli elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzi (Asan SXM) «Rəqəmsal İD» adlandırılan elektron imza kartları üzərindən xidmət göstərmək imkanına malikdir. Bu kartlar bütün əməliyyat sistemlərini (MS Windows, Unix, Mac OS) dəstəkləyir. Bundan əlavə, Asan SXM, mobil-İD mərkəzi və mobil operator vasitəsilə mobil imza («ASAN imza») xidmətini də təqdim edir.

Bu xidmət üçün xüsusi SİM katını almaq üçün müraciət edən şəxs öz ərizəsində göstərir. İstifadəçi həmin kodu unudarsa, sistemə giriş zamanı «ASAN imza» bölməsində yerləşən «İstifadəçi İD-mi unutmuşam» linkini tıklayır. Bu zaman onun telefonuna SMS vasitəsilə «İstifadəçi İD»si göndərilir (gün ərzində bir dəfədən çox olmamaq şərtilə). Kod «qeyri-məxfi» statusa malikdir, yəni həmin kodun digər şəxslərə məlum olması təhlükəsizliyə xələl gətirmir və internetdə «spam»dan müdafiə olunmaq üçün istifadə edilir.

Gizli sual, «ASAN imza» telefonu, rəqəmsal İD kartı iti-



**Qanunvericiliyə əsasən, sertifikatlaşdırılmış imza vasitələri ilə yaradılmış və qüvvədə olan təkmil sertifikatlı gücləndirilmiş imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir**

kartdan istifadə olunur. Həmin SİM kart həm telefon nömrəsinin, həm də elektron imza yaratma məlumatlarının fiziki daşıyıcısıdır. Bu texnologiyadan bəhrələnmək üçün istifadəçi mobil operatordan «ASAN imza» SİM kartını əldə etməli və ASXM-dən təkmil sertifikat alaraq «ASAN imza» (mobil imza) xidmətini aktivləşdirməlidir. Bundan sonra o, onlayn xidmətlərə təhlükəsiz daxil ola və sənədləri asanlıqla onlayn imzalayaraq Vergilər Nazirliyinə göndərə bilər. Sistemə daxil olmaq və sənədləri imzalamaq üçün rəqəmsal İD kartından da istifadə etmək mümkündür.

İstifadəçiyə aid İD altırəqəmli təhlükəsizlik kodudur. Bu kodu «ASAN imza» sertifi-rildikdə, oğurlandıqda və ya sertifikat məlumatlarının təhlükəsizliyində problem yarandıqda imza sahibi tərəfindən operativ surətdə gizli sual vasitəsilə sertifikatın fəaliyyəti dayandırılır. Bu zaman imza sahibi 195-1 «Çağrı Mərkəzi»nə müraciət edərək gizli suala cavabını bildirir və sertifikatın fəaliyyətini dayandırır. Gizli sual və cavab yalnız sertifikat sahibinə bəlli olmalıdır. Sonradan sertifikatın qüvvəsini bərpa etmək üçün imza sahibi şəxsiyyətini təsdiq edən sənədlə ASXM-ə müraciət etməlidir.

«ASAN imza» (mobil imza) barədə www.asanimza.az saytı vasitəsilə daha ətraflı məlumat almaq olar.

**FƏXRİYYƏ**

# Vergi kalkulyatoru

**Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli, 1384-IVQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilmiş, o cümlədən 01.01.2016-cı il tarixdən mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər və bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün sadələşdirilmiş verginin hesablanmasının yeni qaydası müəyyən edilmişdir. Bununla əlaqədar olaraq, Vergilər Nazirliyi tərəfindən əmlakın yaşayış və ya qeyri-yaşayış sahəsinə aid olmasından, yerləşdiyi ərazi və əraziyə uyğun zonalardan asılı olaraq sadələşdirilmiş vergi məbləğinin daha rahat və asan şəkildə müəyyənləşdirilməsi məqsədilə hesablayıcı-kalkulyator hazırlanmışdır. Eyni zamanda, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslərin və müəssisələrin torpaq vergisinin hesablanması üçün zəruri olan torpağın təyinatı, coğrafi yerləşməsi, keyfiyyəti, torpaq vergisinin dərəcəsi və güzəşt hüququ kimi məlumatlara əsasən torpaq vergisinin hesablanma mexanizmini özündə əks etdirən hesablayıcı-kalkulyator da hazırlanmışdır. Vergi ödəyicilərinin istifadəsinə verilən bu hesablayıcı-kalkulyatorlar istifadəçilərin işini asanlaşdırmaqla yanaşı, dəqiqliyin və şəffaflığın təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, həmin kalkulyatorlar vergi ödəyiciləri, eləcə də vətəndaşların istifadəsi məqsədilə Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmişdir. Qeyd olunan kalkulyatorlardan müvafiq vergi növləri ilə bağlı vergi məbləğlərinin hesablanması zamanı aşağıdakılara diqqət etmək zəruridir.**

### Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslər üçün ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi məbləği

Bu vergi məbləğinin «Vergi kalkulyatoru»nda hesablanması üçün «Ödəyici qrupu» hissəsindən müvafiq seçim edilir. Daha sonra yaşayış sahəsi və qeyri-yaşayış sahəsi xanalarına müvafiq məlumatlar daxil edilir. «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən daşınmaz əmlakın yerləşdiyi ərazi seçilir. Bu zaman təklif edilən variantlardan «Bakı şəhəri» seçilərsə «Zona seçimi» hissəsi aktivləşir və həmin hissənin üzərinə sıxıldıqda «Zona üzrə axtarış» adlı səhifəyə keçid edilərək Bakı şəhərinə uyğun zonalar üzrə axtarış imkanı yaranır.

«Zona üzrə axtarış» səhifəsindəki «Axtarış bölməsi»nə məlumat daxil edilib «Enter» düyməsi sıxılmaqla axtarış edilir, həmin bölməyə heç bir məlumat daxil edilmədikdə isə bütün zonalar ekranda əks olunur. Bu zaman «Zonalar üzrə xəritə»dən də istifadə olunmaqla axtarış etmək mümkündür. Müəyyən edilmiş zona «Verginin hesablanması» səhifəsindəki «Zona seçimi» bölməsinə daxil edilir. «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən digər ərazilər seçildikdə isə «Zona seçimi» bölməsi deaktivləşir. Sonda sadələşdirilmiş verginin məbləği ekranda əks olunur.

### Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər

Bunun üçün istifadəçi «Ödəyici» qrupu hissəsindən müvafiq seçim edir. «Yaşayış sahəsi» və «Qeyri-yaşayış» sahəsi xanalarına müvafiq məlumatlar daxil edilir, «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən daşınmaz əmlakın yerləşdiyi ərazi seçilir. Bu zaman «Bakı şəhəri» seçildikdə «Zona seçimi» hissəsi aktivləşir və həmin hissənin üzərinə sıxıldıqda «Zona üzrə axtarış» adlı səhifəyə keçid edilərək




Bakı şəhərinə uyğun zonalar üzrə axtarış imkanı yaradılır. «Zona üzrə axtarış»dakı «Axtarış bölməsi»nə məlumat daxil edilib «Enter» düyməsi sıxılmaqla axtarış edilir, həmin bölməyə heç bir məlumat daxil edilmədikdə isə bütün zonalar ekranda əks olunur. Bu zaman «Zonalar üzrə xəritə»dən də istifadə olunmaqla axtarış etmək mümkündür. Müəyyən edilmiş zona «Verginin hesablanması» səhifəsindəki «Zona seçimi» bölməsinə daxil edilir. «Daşınmaz əmlakın yerləşdiyi ərazi» hissəsindən digər ərazilər seçildikdə isə «Zona seçimi» bölməsi deaktivləşir. Sonda sadələşdirilmiş verginin məbləği ekranda əks olunur.

### Torpaq vergisinin hesablanması

Bunun üçün ilk növbədə torpağın növü seçilməlidir. Əgər «Torpağın növü» bəndindən «Kənd təsərrüfatı torpaqları» seçilərsə, bu zaman torpağın sahəsinin kvadratmetri yazılmalıdır. Bundan sonra torpaq vergisinin məbləği ekranda əks olunur.

Bu torpaq növü üzrə «Təyinatı üzrə istifadə edilən və ya müxtəlif səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları» bəndi aktiv edilərsə, bu zaman ekranda «Ərazi» pəncərəsi açılacaq və buradan torpağın yerləşdiyi ərazi siyahıdan seçilməlidir. Daha sonra keyfiyyət qrupu və torpağın sahəsi qeyd edilməlidir. Torpaq sahəsi biçənək, örüş və ya otlaq olarsa, torpağın sahə ölçüsü də qeyd edilməlidir. Bundan sonra torpaq vergisinin məbləği hesablanır.

«Torpağın növü» siyahısından «Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar» seçildikdə, bu zaman torpağın yerləşdiyi ərazinin sahəsi qeyd edilməli və bundan sonra vergi hesablanmalıdır. Torpağın növü yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar olarsa, bu zaman da torpağın yerləşdiyi ərazi seçilir, daha sonra torpağın sahəsi qeyd edilir. Bundan sonra torpaq vergisinin məbləği ekranda əks olunur.

**Rəşad SADIQOV**

**ELAN**

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# POS-terminallardan istifadə genişlənməlidir

Nağdsız ödənişlərin geniş yayılmış vasitələrindən biri POS-terminallardır. Azərbaycanda 2012-ci ildən ticarət mərkəzlərində, mağazalarda, ictimai-iaşə obyektlərində aparılan ödənişlərin elektron ödəniş aləti olan POS-terminallar vasitəsilə həyata keçirilməsi üçün zəruri infrastruktur yaradılıb. İndi Bakı şəhərində və regionlarda əksər təsərrüfat subyektlərində POS-terminal aparatları quraşdırılıb. Həmin qurğulardan istifadənin kütləvi xarakter daşıması üçün Vergilər Nazirliyi, Mərkəzi Bank və digər qurumlar tərəfindən davamlı olaraq təşviqedici, maarifləndirici tədbirlər həyata keçirilir.

Bu sahədə göstərilən səylərə, həyata keçirilən tədbirlərə baxmayaraq, bəzi təsərrüfat subyektləri POS-terminalların istifadəsinə laqeyd yanaşır, bu cihazların aktiv işləməsi üçün süni əngəllər yaradırlar. Bir çox hallarda isə sahibkarlar onu işlətməyə həvəs göstərmirlər.

Vergilər nazirinin müavini Sahib Ələkbərov bildirib ki, böyük otellərin, ticarət mərkəzlərinin əksəriyyətində POS-terminallar mövcud olsa da, onların əksəriyyəti işlək vəziyyətdə deyil: «Kiçik otellər və mağazalarda müxtəlif bəhanələr gətirərək bildirirlər ki, POS-terminal yoxdur. Amma onların əksəriyyətində bu qurğular var, sahibkarlar isə ondan istifadə etmək istəmirlər. Mövcud vəziyyət POS-terminaldan imtina olunmasına görə qanunvericilikdə müəyyən tələblərin qoyulması zərurətini yaradıb. Bu istiqamətdə Vergilər Nazirliyinin mövqeyi qətidir, nağdsız hesablaşmalara keçidin alternativi yoxdur. Bu nöqteyi-nəzərdən, nağdsız ödənişlərin genişləndirilməsi tədbirləri gücləndiriləcək».

Qanunvericiliyə əsasən, POS-terminalların quraşdırılması və istifadəsi ilə bağlı təsərrüfat subyektləri qarşısında müvafiq vəzifələr qoyulub. «İstehlakçı hüquqlarının müdafiəsi haqqında» Qanunun 17-ci, Vergi Məcəlləsinin 16.1.11-1-ci maddəsinə əsasən, bütün obyektlərdə elektron ödəniş sistemlərinin qurulması sahibkarın və ya satıcının vəzifəsidir. Həmin qanunun tələblərinə əsasən, hər bir sahibkar müştərilərinin nağdsız ödəmələrini təmin etmək üçün öz müəssisəsində və ya obyektində POS-terminal qoymalı, onun işləkliyini təmin etməlidir. Əks halda, bu, qanunun tələblərinin pozulması deməkdir və mağaza sahibi haqqında müvafiq tədbirlər görülməlidir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, quruma daxil olan müraciətlərin böyük bir qismi marketlərin, satış və xidmət obyektlərinin kartla alış-verişdən imtina halları ilə bağlıdır. Vətəndaşlar bildirirlər ki, ticarət və xidmət şəbəkələrində POS-terminalların quraşdırılmasına baxmayaraq, kartla ödənişdən imtina olunur, nağd pul tələb edilir. Bir çox hallarda istehlakçıların hüquqlarının pozulmasına satıcı, yaxud POS-terminal istifadəçisinin qeyri-peşəkar fəaliyyəti də birbaşa təsir göstərir. Birliyin sədri hesab edir ki, məhz bu məqsədlə POS-terminalların quraşdırıldığı ticarət, iaşə, xidmət məntəqələrində imtina hallarının olub-olmamasını və istehlakçıların hüquqlarının pozulub-pozulmamasını müəyyən etmək üçün davamlı monitorinqlər keçirilməlidir.

Otellərdə və turizm obyektlərində də POS-terminalların quraşdırılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycana gələn əcnəbi turistlərin əksəriyyəti nağdsız ödənişlərə üstünlük verir. Azərbaycan Turizm Assosiasiyasının məlumatına görə, 2017-ci ildə ölkəmizə gələn turistlərin sayı əvvəlki illərlə nisbətdə 20,2% artaraq 2 milyon 691 min 998 nəfər olub ki, bu da indiyə qədər müşahidə edilmiş ən yüksək göstəricidir. Bakı şəhəri ilə yanaşı, bölgələrdə də otel və mehmanxanalar ilin əksər vaxtı tam gücü ilə işləyir. Bütün bu amillər otellərdə POS-terminalların daim işlək qaydada olmasını tələb edir. Ancaq aparılmış təhlillər göstərir ki, bu sahədə vəziyyət heç də qənaətbəxş deyil, nağd ödənişlər üstünlük təşkil edir və nəticədə vergidən yayınma halları artır.

Vergilər nazirinin büdcə proqnozlarının icrası üzrə müşaviri Habil Məmmədov bildirib ki, turizm şirkətlərinin təqdim etdiyi bəyannamələr onların həqiqi dövriyyələrini əks etdirmir. Vergi orqanı əməkdaşları otellərin sifariş olunmuş otaq sayının 50%-ni nəzərə alaraq (əslində, bu göstərici 70-80%-dən də çoxdur), internetdə təqdim etdikləri qiymətlərdən 10% aşağı olmaqla hesablama apardıqda verginin 3 dəfədən çox gizlədilməsini aşkar ediblər. Hətta otellərin tərkibindəki ictimai iaşə obyektlərinin, digər sahələrin xidmətləri nəzərə alınmadıqda belə, onlar faktiki gəlirlərini bəyannamədə 3 dəfə aşağı göstərirlər. Bu hallar otellər üzrə vergi öhdəliklərinə əməl edilməsi vəziyyətinin yaxşı olmadığını, vergidən yayınma hallarının mövcudluğunu təsdiqləyir. Turizm sektorunda əməliyyatlar tamamilə nağdsızlaşdırılsa, POS-terminlardan geniş istifadə olunsa, vergi ödənişlərinin həcmi də artar, nəticədə şəffaflıq təmin edilər.

Onu da qeyd edək ki, Vergilər Nazirliyi tərəfindən POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə mütəmadi olaraq məlumatlandırma işləri aparılır. Müxtəlif bukletlər, yaddaş kitabçaları və digər əyani vəsaitlər hazırlanaraq istehlakçılara və satıcılara paylanıb. İqtisadiyyat Nazirliyi də POS-terminallardan istifadə ilə bağlı istehlakçıların maarifləndirilməsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdırır. Nazirlikdən bildirilib ki, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti mütamadi olaraq istehlakçıların maarifləndirilməsi məqsədilə silsilə tədbirlər keçirir, broşürlər dərc edir. İndiyədək bu mövzuda 15 minə yaxın buklet, 4 adda 500-dən çox yaddaş kitabçası çap edilərək sahibkarlara və istehlakçılara çatdırılıb. Burada istehlakçı hüquqları ilə bağlı bütün məlumatların geniş təfərrüatları öz əksini tapıb.

Xatırlatma: Ödəniş kartı ilə ticarət mərkəzlərində, mağazalarda, ictimai iaşə obyektlərində aparılan ödənişlər elektron ödəniş aləti olan POS-terminal vasitəsilə həyata keçirilir. POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, valyuta mübadiləsi əməliyyatlarının aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıqdır. POS-terminal həm ödəniş kartı sahibləri, həm də biznes subyektləri üçün faydalıdır. POS-terminal vasitəsilə əməliyyatlar həyata keçirilərkən iki nüsxədə qəbz çap olunur: qəbzin bir nüsxəsi təsərrüfat subyektində qalır, digəri isə kart sahibinə verilir. Qəbzin alınması malın dəyişdirilməsi, geri qaytarılması və istehlakçıların hüquqlarının müdafiəsi baxımından zəruridir.

**ELBRUS**

# Uçot dərəcələri aşağı salındı

## Mərkəzi Bank uçot dərəcəsinin 13%-dən 11%-ə endirilməsi barədə qərar qəbul edib

Faiz dəhlizinin parametrləri haqda qərar qəbul edilərkən bir sıra xarici və daxili mühitdə baş verən proseslər nəzərə alınıb. Mərkəzi Bankın (MB) İdarə Heyətinin sədri Elman Rüstəmov bildirib ki, qərarın qəbul edilməsində əsas faktorlar inflyasiyanın birrəqəmli həddə olması, qarşıdakı aylarda inflyasiyanın azalmasına dair nikbin proqnozlar və xarici balansın yaxşılaşması olub. Manatın məzənnəsinin sabitləşməsi, dollarlaşma prosesinin zəifləməsi maliyyə sabitliyinə və inflyasiya gözləntilərinin azalmasına müsbət təsir edib. Bundan başqa, qeyri-neft ixracının həcminin artması Azərbaycanın tədiyyə balansının yaxşılaşmasını təmin edib, nəticədə xarici təzyiqlərin iqtisadiyyata təsiri azalıb, 2017-ci ildə strateji valyuta ehtiyatları 11%-dən çox artıb, cari ilin ilk rübündə bu sahədə 8%-ə yaxın artım müşahidə edilib. Beləliklə, ölkəmizdəki makroiqtisadi dayanıqlığın yüksəlməsi faiz dəhlizinin aşağı salınmasına imkan yaradıb.

E.Rüstəmov faiz dəhlizi parametrlərindən biri olan məzənnə dəyişkənliyi ilə əlaqədar narahatlığa aydınlıq gətirərək qeyd edib ki, 2018-ci il ərzində manatın məzənnəsinin sabit qalacağı proqnozlaşdırılır. Milli valyutanın ucuzlaşması üçün heç bir fundamental amil yoxdur. 2017-ci ildən başlayaraq milli valyutanın məzənnəsinin sabitliyinin təmin olunması biznes sektorunda və vətəndaşlarda manata inamı bərpa edib. Vətəndaşların banklara manatla yerləşdirdiyi əmanətlərin həcmi 2017-ci ildə əvvəlki ilə nisbətən 2 dəfəyə yaxın çoxalıb. Eləcə də biznes nümayəndələrinin real sektora yönəltdiyi sərmayələrin də həcmi artıb.

İqtisadçı Oqtay Məmmədovun fikrincə, uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyətin müsbət olmasına dəlalət edir: «Bu siyasət həyata keçirilərkən ən mühüm məqamlardan biri kimi inflyasiya səviyyəsi nəzərə alınır. İnflyasiya səviyyəsi yüksəlirsə, MB uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. Mövcud vəziyyət onu göstərir ki, qiymət indeksinin maliyyə sektoruna ciddi təsirləri azalıb. Azərbaycanda son aylarda, xüsusilə də 2018-ci ilin ilk rübündə qiymət artımı əvvəlki dövrlərlə müqayisədə aşağı düşüb. Statistikaya əsasən, yanvar-mart aylarında qiymət artımı 4% təşkil edib. Bu amil faiz dəhlizinin parametrlərinin aşağı salınması üçün fundamental əsaslardandır.

Faiz dəhlizinin aşağı salınması ölkənin maliyyə-kredit sistemində əlverişliliyi artırır, xüsusilə kredit siyasətinin əhəmiyyətli dərəcədə yumşaldılmasına əsas yaradır. Milli valyutanın sabitliyi fonunda bankların manat kreditlərinin həcmini artırması, həmçinin faizləri aşağı salması üçün əlverişli şərait var, buna görə də müvafiq qurumlar bundan sonra kreditlər üzrə dərəcələrin də azalması yönündə təşviqedici və təsirli addımlar atmalıdırlar».

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov hesab edir ki, hazırda bank bazarında kredit siyasətinin əhəmiyyətli dərəcədə yumşaldılmasına ciddi ehtiyac var. Bankların kreditləri istehlakçılar üçün əlçatan deyil, bir çox hallarda istehlak kreditləri iqtisadiyyatın inkişafına yox, müştəri üçün problemə çevrildiyindən səmərəsi də olmur. Buna görə də kreditlərin faizləri aşağı salınmalı, iqtisadi baxımdan sahibkarlar üçün rentabelli olmalıdır. Mərkəzi Bankın yürütdüyü faiz siyasəti bankların bahalı kreditlərdən «əl çəkməsini» zəruri edir.

Qeyd edək ki, Mərkəzi Bank sonuncu dəfə faiz dərəcələrini 2 ay əvvəl - fevralın 12-də 15%-dən 13%-ə endirmişdi. Faizlərlə bağlı növbəti qərar 2018-ci ilin iyun ayında nəzərdə tutulan müzakirələrdən sonra veriləcək. İkinci rübün makroiqtisadi göstəriciləri qəbaətbəxş olduğu təqdirdə, faiz dərəcəsinin yenidən aşağı salınması istisna deyil.

**E.CƏFƏRLİ**

# Asiya İnkişaf Bankı Azərbaycanla bağlı proqnozlarını açıqlayıb

Asiya İnkişaf Bankının (AİB) «Asiya İnkişaf Proqnozu 2018» adlı hesabatında qeyd olunub ki, bu il Azərbaycanda iqtisadi artım 1,7%-ə, 2019-cu ildə isə 2%-ə yüksələcək. Hesabat müəlliflərinin proqnozlarına əsasən, 2018-2019-cu illərdə Azərbaycanda inflyasiya, müvafiq olaraq, 7% və 8% təşkil edəcək.

«Yüksək neft qiymətləri, xidmətlər və kənd təsərrüfatından əldə olunan gəlirlər sayəsində 2017-ci ildə Azərbaycanda iqtisadi vəziyyət sabitləşib. Bununla yanaşı, tədiyyə balansında da profisit qeydə alınıb. Neft qiymətlərinin növbəti dəfə aşağı düşəcəyi təqdirdə, 2018-ci ildə sənaye istehsalının 0,5% azalacağı proqnozlaşdırılır. Buna baxmayaraq, ilin ikinci yarısında «Şahdəniz-2» layihəsinin istismara verilməsi ilə qaz hasilatının 3% artacağı gözlənilir. Dövlət investisiyalarının, infrastruktur və mənzil tikintisinin artması nəticəsində 2018-ci ildə tikinti sektoru 6%, 2019-cu ildə isə 3% böyüyəcək. Eyni zamanda, yüksək gəlirlər və milli valyutanın sabitliyi həm 2018, həm də 2019-cu ildə fərdi istehlak həcminin artmasına səbəb olacaq. Qaz hasilatının artması 2019-cu ildə xalis ixracı da genişləndirəcək», - deyə hesabatda vurğulanıb.

AİB «Şahdəniz-2» layihəsinin istifadəyə verilməsi, neft qiymətlərinin 60 dollardan yuxarı olması səbəbindən tədiyyə balansının profisitinin 2018-ci ildə ÜDM-in 6,9%-nə, 2019-cu ildə isə 6,2%-nə bərabər olacağını proqnozlaşdırır. İdxal əməliyyatlarının isə bu il 6% azalacağı, ixracın isə 13% artacağı gözlənilir.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Aprelin 11-də İstanbulda öz işinə başlayan XXI Avrasiya İqtisadi Zirvəsində bir sıra ölkələrdən hazırkı və keçmiş dövlət və hökumət başçıları, eləcə də Azərbaycan və Türkiyədən rəsmi şəxslər, tanınmış alimlər, QHT və KİV rəhbərləri iştirakı edirlər.

Azərbaycanda ödəniş xidmətləri və sistemləri ilə bağlı qanun layihəsi hazırlanır.

Ölkəmiz Dubayda keçirilən İnvestisiya və Əmlak Sərgisində təmsil olunur.

Mayın 30-31-də «Fairmont Baku» otelində keçiriləcək Beynəlxalq «Caspian Oil & Gas» konfransı özünün 25 illik yubileyini qeyd edəcək.

İyunun 11-13-də Bakı Expo Mərkəzində XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika «TransCaspian/Translogistica 2018» sərgisi keçiriləcək.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Rəqəmsal biznes data xidmətlərlə inkişaf edir

İnformasiya və kommunikasiya texnologiyalarının cəmiyyətin və dövlətin həyatının dəyişilməsində, yeni inkişaf tendensiyalarının tətbiqində mühüm rolu var. Qloballaşma şəraitində İKT sahəsində həyata keçirilən mühüm layihələr insan həyatına öz müsbət təsirini göstərir, rəqəmsallaşma, elektron xidmətlərin artımı informasiya cəmiyyətinə keçidi daha da sürətləndirir ki, burada da ilk öncə bu texnologiyaların düzgün şəkildə tətbiqi və sağlam baza üzərində reallaşması aktuallıq kəsb edir. Mövzunu informasiya texnologiyaları və kommunikasiyaları üzrə mütəxəssis Fuad Allahverdiyev şərh edir.

Müasir tendensiyalara cavab vermək iqtidarında olan texnoloji sistemin qurulması, rəqəmsal transformasiyanın tam sürətlə həyata keçirilməsi heç də asan deyil. Bu həm müvafiq texnologiyaların tətbiqini, həm də sərmayə yatırımını tələb edir. Mühüm məqamlardan biri də texnoloji təməlin - sabit bazanın olmasıdır. Təməl olmadan texnoloji inkişafdan söhbət gedə bilməz. İnkişaf etmiş müxtəlif ölkələrdə müşahidə olunan texnoloji inkişafın əsasında məhz sağlam və keyfiyyətli baza dayanır. Digər məqamlardan biri də texnoloji təməlin, yəni bazanın müasir standartlara cavab verməsi, düzgün qurulması və onun üzərində innovativ texnoloji platformaların yüksəldilməsidir.

Mobil operatorların güclü sabit baza üzərindən sürətli xidmətlər təqdim etməsi günün tələbidir. Hazırda mobil operatorlar yeni inkişaf mərhələsinə qədəm qoyur, gələcək biznesin artıq səsli rabitə deyil, data xidmətləri və məzmun (kontent) əsasında inkişaf edəcəyini yaxşı anlayırlar. Dünya miqyasında yeni inkişaf istiqaməti olan 5G texnologiyasının tətbiqi ilə bağlı mobil operatorların ilk öncə bu sistemə hazır olması, sabit (fixed) şəbəkəni düzgün şəkildə qurması lazımdır ki, bu da yeni sərmayə və əməliyyat xərcləri tələb edir. Qarşıdakı dövrdə mobil operatorların 4G sistemindən 4.5G Pro sisteminə, daha sonra isə 5G sisteminə keçidi ilə bağlı sabit infrastruktur güclənməli, innovativ texnoloji istiqamətlərdə həm dövlət, həm də özəl sektorun sərmayə yatırımı ilə bağlı işlər aparılmalıdır. Bu gün dünya miqyasında 5G texnologiyası test rejimindədir və yaxın müddətdə tətbiqi planlaşdırılır.

Mobil operatorlar bu texnologiyanın onlara yeni imkanlar açacağını dərk edirlər. Onlar həm də bunun tətbiqi üçün sabit infrastruktura qoyulmalı olan yatırımlarının da həcminin artacağını anlayırlar. Bununla bərabər, operatorlar istifadəçilərin artan tələbləri fonunda mövcud 4G sistemini təkmilləşdirirlər. Mobil Operatorların Assosiasiyası - GSMA təşkilatının «Mobil İqtisadiyyat 2017» adlı hesabatına əsasən, 5G istiqamətində bir çox ölkələr tezliklə kommersiya buraxılışını həyata keçirəcəklər. Təşkilatın hesabatında göstərilir ki, 5G şəbəkəsi 2025-ci ilə qədər dünya əhalisinin 1/3 hissəsini əhatə edəcək. «Deloitte» şirkəti də 2023-cü ilə qədər 5G sisteminin bir çox inkişaf etmiş bazarlarda tətbiqini qeyd edir. Şirkət «Texnologiya, Media və Telekommunikasiya proqnozları-2018» adlı hesabatında bildirmişdir ki, 5G daha yüksək sürət və qoşulma imkanları təklif edəcək.

Ümumilikdə beynəlxalq təşkilatlar operatorların gələcəkdə infrastruktura çəkiləcək xərclərinin artacağını qeyd edirlər. IDC (International Data Corporation - Beynəlxalq Data Korporasiyası) təşkilatının proqnozlarına görə, 2021-ci ilə qədər «bulud üzərindən» xidmətlər və infrastruktur, avadanlıq, proqram təminatı və bulud hesablamaları üçün dünya üzrə xərclər ikiqat artacaq və 530 milyard dollara çatacaq.

Dünyadakı bu reallıqları nəzərə almaqla, Azərbaycan şirkətləri də düzgün texnoloji bazanın qurulmasına xüsusi diqqət yetirməlidirlər. Hazırda ölkəmizdə İKT sahəsində yeni istiqamətlər formalaşır. 10 il öncə reallaşması çətin görünən texnoloji layihələr bu gün uğurla icra olunur. Müasir standartlara cavab verə bilən Data mərkəzlərin təsis edilməsi və dövlət tərəfindən bu sahəyə diqqətin artırılması, operatorların mobil maliyyə istiqamətində ilk addım atması, internetə qoşulan əşyaların sayının gündən-günə çoxalması və beləliklə də IoT və M2M istiqamətlərinin inkişafı bunu göstərir.

Hazırda ölkəmizin telekommunikasiya sektorunun iştirakçıları olan özəl sektor nümayəndələri də innovativ texnologiyaların tətbiqi üçün texnoloji təməlin inkişafı məsələsinə xüsusi diqqət yetirməli, bu sabit bazanın inkişafı və yenilənməsinə sərmayə yatırmalıdırlar, çünki bir qayda olaraq, məhz keyfiyyətli və sağlam sabit texnoloji baza gələcəkdə əlavə xərclərin çəkilməsinin qarşısını əhəmiyyətli şəkildə alır. İndiki şəraitdə mobil cihazlar üzərindən əməliyyatların sayının artması, mobil telefonun artıq şəxsiyyətin identifikasiyası vasitəsinə çevrilməsi, elektron xidmətlərdə istifadəsi hər ötən gün texnoloji transformasiyanı, yeni istiqamət olan mobil hökumət konsepsiyasının daha da aktuallaşmasını şərtləndirir ki, bu da məhz sağlam baza üzərində uğurla həyata keçirilə bilər.

> Bu gün dünya miqyasında 5G texnologiyası test rejimindədir və yaxın müddətdə tətbiqi planlaşdırılır

Bütün bu yeniliklərin icrasında əsas hərəkətverici və nizamlayıcı qüvvə olan dövlət müstəsna rola malikdir. Lakin vacib məqamlardan biri də məhz ən müxtəlif şirkətlərin - telekommunikasiya operatorlarının təşəbbüslərlə çıxış etməsi, yeni texnoloji istiqamətlərə sərmayə yatırması, ilkin sabit bazanı inkişaf etdirməsi, bununla da İKT sektorunun dayanıqlı inkişafını təmin etməsi və informasiya cəmiyyətinə keçid prosesini sürətləndirməsidir.

*Hazırladı:*
**F. İKRAMQIZI**

# Son 14 ildə dövlət büdcəsinin gəlirləri 13,5 dəfə artıb

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının saytına müsahibəsində deyib ki, bazar iqtisadiyyatına keçid dövründə ölkə iqtisadiyyatında aparılan islahatlar dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını və 90-cı illərin əvvəlində yüksək olan büdcə kəsirinin azalmasını təmin edib. 2017-ci ildə dövlət büdcəsinin gəlirləri 2003-cü ilə nisbətən 13,5 dəfə artaraq 16,5 milyard manat, xərcləri isə 14,2 dəfə artaraq 17,5 milyard manata çatıb.

Diqqətə çatdırılıb ki, bu dövr ərzində büdcə kəsirinin ölkənin ümumi daxili məhsuluna faiz nisbəti beynəlxalq təcrübədə müəyyən edilmiş 3 faizlik normaya qarşı orta hesabla 0,6 faiz təşkil edib, 2004, 2006, 2011 və 2013-cü illərdə isə dövlət büdcəsi profisitlə icra edilib.

# İdeyanı uğurlu biznesə çevirmək üçün...

Dövlətimizin sahibkarlığın inkişafına xüsusi qayğı ilə yanaşdığı, biznes mühitinin təkmilləşdirilməsinə böyük əhəmiyyət verdiyi indiki şəraitdə sahibkarların öz biznes ideyalarını həyata keçirə bilmələri də az aktuallıq kəsb etmir. Bəs ideyanı uğurlu biznesə çevirməyin başlıca şərtləri nədir? Suala biznes üzrə hüquqşünas-məsləhətçi Xəyal Məmmədxanlı cavab verir.

Həyatımıza yeni biznes həll yollarının daxil olması davamlı bir prosesdir. Bəzən bu yeniliklər çox mürəkkəb innovasiya olur, bəzən sadəliyi ilə seçilir, bəzən də uğurlu ideyalar müxtəlif mərhələlərdə uğursuzluğa məruz qalır.

Hər hansı biznes innovasiya ilə uğur qazanmaq üçün heç də hər zaman dahi proqramçı, imkanlı şəxs olmağa və ya xaricdə oxumağa ehtiyac yoxdur. Artıq elə bir zamanda yaşayırıq ki, resurs əldə etmək və bu resurslardan istifadə edib ideyalarımızı reallaşdırmaq son dərəcə asanlaşıb. Sadəcə, müəyyən maneələr imkan vermir ki, bu şəraitdən istifadə edib potensialımızı reallaşdıraq.

Bir çox hallarda biz hansı addımları atacağımızı bilmirik, müzakirə etdiyimiz ideyaların işləyib-işləməyəcəyinə dair əlimizdə çox az əsas olur, ya da ideyalar çox kəskin və bəzən əsassız tənqidə məruz qalaraq «beşikdə boğulur». Müasir dövrdə biznes ideyalarının reallaşdırılması asanlaşsa da, məsələnin çətin tərəfi də var. Artıq əlimizdə internet kimi bir resurs var, coğrafi sərhədlərin rolu azalmağa başlayıb, maliyyə resurslarına əlçatanlıq artıb. Bu imkanların yaranması istehlakçı gözləntilərinin artması ilə nəticələnib ki, bu da işi çətinləşdirir. Hazırda hər hansı bir məhsulu satmaq üçün ona ehtiyacın olması yeganə tələb deyil. İstehlakçı həm ucuz, həm də keyfiyyətli məhsul axtarır, digər analoji məhsullarla müqayisə edir, məhsul və xidmətin yaradacağı əlavə dəyərləri düşünür.

İdeyanı biznesə çevirmək üçün bir neçə faktor üst-üstə düşməlidir. Bunları iki qrupa təsnif emtək olar. Zaman, məkan və insan əsas faktorlardır. Başqa sözlə, ideyanın uğurlu biznesə çevrilməsi üçün ideya düzgün zamanda, düzgün yerdə və düzgün insanlarla həyata keçirilməlidir. İkinci dərəcəli faktorlara isə qiymət və promo aid edilməlidir. Qiymət mövcud istehlakçı ehtiyaclarına və gözləntilərinə cavab verməli, məhsulun tanıtımı peşəkarcasına aparılmalıdır.

Müasir biznes bizdən yeni şərtlər tələb etməyə başlayıb. Artıq istehlakçılar istehsalçılardan innovativ tətbiqlər, fərqli yanaşmalar gözləyirlər. Ənənəvi biznes yanaşmaları isə əksər hallarda istehlakçıları cəlb etmir...

**FƏXRİYYƏ**

## 2018-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin mart ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın** təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 1-ci rübünə görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsini,
- Ödəmə mənbəyində tutulan verginin bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Cari ilin 1-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin bəyannaməsi (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri istisna olmaqla) **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və mart ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Xüsusi notariuslar gəlir vergisi bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və mart ayı üzrə hesablanmış gəlir vergisini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Dövlər rüsumu haqqında hesabat

cari ilin **aprel ayının 20-dək** vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin aprel və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin aprel və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Çin Amerikadan gətirilən 128 mal üçün rüsumları artırıb

Çinin Maliyyə Nazirliyindən verilən açıqlamaya görə, Dövlət Şurasının qərar etdiyi qərarla aprelin 2-dən ABŞ-dan idxal edilən yeddi növ üzrə 128 adda mal üçün gömrük güzəştləri ləğv edilmişdir.

Meyvələr və onlardan hazırlanan ümumilikdə 120 adda ərzaq məhsulu üçün 15 faizlik rüsum tətbiq olunmuşdur. Donuz əti və ondan əldə edilən qidalar üçünsə rüsum daha yüksəkdir - 25 faiz təşkil edir. Nazirliyin açıqlamasında qeyd edilmişdir ki, Çin xarici ölkələrdən gətirilən mallar üçün tətbiq olunan rüsumların sabit saxlanılması və azaldılması siyasətini davam etdirəcək. «Bu addımın atılması ABŞ hökumətinin Çindən göndərilən polad və alüminium məhsullarına tətbiq etdiyi rüsumun vurduğu ziyanı aradan qaldırmaq üçündür».

Qeyd edək ki, ABŞ Prezidenti Donald Trampın martın 22-də imzaladığı memorandumda, ABŞ dövlətinin mövqeyi baxımından, Çin tərəfindən yol verilən qəbuledilməz ticarət təcrübələrinə qarşı kompleks tədbirlər görülməsi nəzərdə tutulur.

Dövlət başçısı ticarət üzrə ABŞ-ın təmsilçisi Robert Laythayzerə tapşırıq vermişdir ki, 15 gün ərzində Çindən gətirilən malların müəyyən kateqoriyaları üçün gömrük rüsumlarının tətbiqinin mümkünlüyü məsələsini araşdırsın, bu malların siyahısını hazırlasın, eləcə də beynəlxalq ticarət qanunlarının pozulması ilə bağlı Ümumdünya Ticarət Təşkilatı çərçivəsində təhqiqata başlasın.

Donald Tramp ABŞ-ın maliyyə nazirinə isə 60 gün ərzində Amerika şirkətlərinə Çinin investisiya qoymaq imkanlarını məhdudlaşdırmaq üçün təklif hazırlamağı tapşırmışdır.

# Tailandda kriptovayuta əməliyyatlarından vergi tutulacaq

Tailand hökuməti bazarda mövcud olan kriptovalyuta əməliyyatlarının qanunsuz məqsədlərlə istifadəsinin qarşısının alınması məqsədilə bu əməliyyatların tənzimlənməsi, eləcə də rəqəmsal valyuta əməliyyatlarının vergiyə cəlb olunması barədə qərar qəbul etməyi planlaşdırır. Maliyyə Nazirliyinin açıqlamasında bu tədbirin gündəliyə gətirilməsinin zərurliyi əsaslandırılmışdır.

Kriptovalyutanın tənzimlənməsinə yönəldilməsi nəzərdə tutulan dəyişikliyə əsasən, investorlar özlərinin rəqəmsal valyuta ilə apardıqları ticarət əməliyyatlarının hamısından 7 faiz dərəcəsi ilə əlavə dəyər vergisi ödəyəcəklər. Bundan əlavə, onlardan rəqəmsal tokenlərdən əldə edilmiş gəlirdən 15 faizlik kapitalın artımı vergisi tutulacaq. Bu, kriptovalyuta sahəsində məhdudiyyət yaratmaq üçün Tailand hökuməti tərəfindən atılmış ilk addım deyil. Fevral ayında Tailandın Mərkəzi Bankı yerli banklara rəqəmsal valyutalar ilə investisiya qoymağı və ticarət etməyi qadağan etmişdi. Buna görə də Tailandda mövcud olan «kripto» şirkətlərin və sahibkarların çoxu öz fəaliyyətlərini qonşu Sinqapurda aparmağa üstünlük verirlər.

# Bağ evləri üçün vergilər peyk çəkilişləri əsasında hesablanacaq

Rusiyada bağ sahələrindəki kiçik tikililər, o cümlədən hamam və qarajlar üçün vergiləri aerofotoçəkilişlər vasitəsilə və həmin obyektlərin Daşınmaz Əmlakın Vahid Dövlət Reyestrində (DƏVDR) qeydiyyatdan keçməklə avtomatik qaydada hesablamaq mümkün olacaq.

«İzvestiya» qəzetinin məlumatına görə, əmlakın növünün müəyyənləşdirilməsi zamanı vergi xidməti Rusiyanın Dövlət Reyestrinin məlumatlarına əsaslanacaq və torpağın tipindən asılı olmayaraq DƏVDR tərəfindən nömrə almış istənilən iri tikili vergitutma obyektinə çevriləcək.

Bu ildən Rusiyada start veriləcək daşınmaz əmlakın qeydiyyata alınması kampaniyası 40 min obyekti əhatə edəcək. Kampaniya zamanı obyektlərin qeydiyyata alınması üçün regionların administrasiyaları peykdən çəkilmiş fotolardan və ya pilotsuz uçan cihazların məlumatlarından istifadə edə biləcəklər.

Onu da qeyd etmək yerinə düşər ki, Rusiya qanunvericiliyinə əsasən, yalnız evlər deyil, həyətdə olan tikililərin hamısı - hamamlar, təsərrüfat anbarları, hətta hasarlar qeydiyyata alınmalıdır və bunlar üçün vergi ödənilməlidir. Bağ evi olan vətəndaşların əksəriyyəti bu qanunun tələblərinə laqeydlik göstərdiyinə görə Moskvaətrafı vilayətin rəhbərliyi qeydiyyata alınmamış obyektlər üçün cərimələrin məbləğini üççat artırmışdır.

# Transmilli şirkətlərin ödədikləri vergi getdikcə azalır

Böyük Britaniyada nəşr olunan nüfuzlu «Financial Times» qəzetinin son araşdırmasına əsasən, iri transmilli şirkətlərin ödədikləri verginin dərəcəsi maliyyə böhranından əvvəlki dövr ilə müqayisədə indi əhəmiyyətli şəkildə aşağıdır. Bu şirkətlərin ödədikləri verginin effektiv dərəcəsi 2000-ci ildə 34 faiz olduğu halda, həmin göstərici 2008-ci ildə 26 faizə, 2016-cı ildə isə 24 faizə enmişdir. Paradoksal haldır ki, bu mənzərə vergi ödəməkdən yayınmaya qarşı mübarizənin sərtləşdirildiyi bir dövrdə yaranmışdır.

Qəzetin araşdırmasında diqqət son 25 ildə 10 ən iri transmilli şirkətin hansı dərəcələr üzrə vergi ödədiyinə yönəldilmişdir. Effektiv vergi dərəcəsindən həmin şirkətlərin öz gəlirlərinin hansı hissəsini büdcəyə ödədiklərini görmək mümkündür. Lakin bu, hər bir konkret il üzrə real ödənilmiş məbləğdən kəskin şəkildə fərqlənə bilər, çünki şirkətlər bir sıra vergilərin ödənilməsindən imtina edirlər.

# Ukrayna korporativ qanunvericilikdə dəyişiklik edəcək



Ukrayna hökuməti korporativ vergidə islahat aparılması və vergi yükünün şirkətin mənfəəti üzərinə keçirilməsi barədə qərar qəbul etmişdir. Bundan əvvəl - martın 12-də dövlət başçısı Pyotr Poroşenko ölkədə fəaliyyət göstərən xarici və yerli şirkətlərin təmsilçiləri ilə görüş zamanı bu təklifləri vergitutma sahəsində «yeni fəlsəfə» adlandırmışdı. Prezidentin mövqeyinə görə, belə bir addımın atılması kiçik biznes üçün vergi rejimini sadələşdirə və investisiya qoyuluşlarının daha yüksək temp qazanmasını təşviq edə bilər. «Biz bu qanun layihəsi ilə kiçik və orta biznesi müdafiə edirik, bu isə mühasibat uçotunun əsaslı şəkildə sadələşdirilməsi deməkdir: dövriyyədən çıxarılan məbləğə görə vergi veriləcək, qalan məbləğ isə biznesə sərmayə qoyulmasına yönəldiləcək», - Prezident demişdir.

Prezident Poroşenko qeyd etmişdir ki, islahatlar mərhələli şəkildə aparılmalıdır, ona görə də iri şirkətlərdən əvvəl kiçik firmalara tətbiq edilməlidir. «Bu sxemi birinci mərhələdə xarici investorlar ilə bir araya gələ bilmək üçün kiçik və orta biznesə tətbiq etməliyik, - Prezident vurğulamışdır. - Bu cür vergi islahatı bir çox ölkələrdə, o cümlədən Gürcüstanda və Estoniyada özünü doğrultmuşdur».

Avropa Biznes Assosiasiyasının tövsiyəsinə əsasən, dəyişikliklər şirkətlərin vergi yükünü azaltmalı, digər tədbirlərin görülməsi ilə kompensasiya edilməməlidir. Ən azından ilkin mərhələdə iri şirkətlərə yeni vergi sistemindən istifadə edib-etməmək üçün seçim imkanı verilməlidir.

Assosiasiya sistemin sınaq qaydasında, başqa sözlə, pilot layihə formasında tətbiq edilməsi ideyasını dəstəkləmişdir. Qeyd edilmişdir ki, yeni sistemin nə dərəcədə uğurla həyata keçirildiyini, eləcə də vergi qanunvericiliyinə könüllü əməletmə normalarına necə təsir etdiyini hökumətin təhlil etməsi mühümdür.

Assosiasiya bəyan etmişdir ki, vergi sisteminin islahatına yönəldilmiş səylər işçi qüvvəsindən tutulan vergilərin azaldılması ilə uyğunlaşdırılmalıdır. Assosiasiyanın bəyanatında qeyd edilmişdir ki, işçi qüvvəsindən tutulan vergi yükünün yüngülləşdirilməsi könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə və kölgə iqtisadiyyatının əhatə dairəsini daraltmağa imkan yaradacaq.

«Biz dövlət başçısının iqtisadi artımın daha yüksək templərlə baş verməsi üçün göstərdiyi səylərə tərəfdarıq. Ümid edirik ki, bu hədəflərə nail olmaq üçün tarazlaşdırılmış vergi sistemi mühüm faktor olacaq», - Assosiasiyanın bəyanatında bildirilmişdir.

# Özbəkistanda fərdi sahibkarların fəaliyyət sahələri məhdudlaşdırılır

Hazırda ölkədə fərdi sahibkarların məşğul ola biləcəkləri fəaliyyət növlərinin siyahısı 80 müxtəlif istiqaməti əhatə edir. 2020-ci ilə qədər olan dövrü əhatə edən vergi islahatı konsepsiyasının təhlili zamanı maliyyə nazirinin müavini Vyaçeslav Pak bu barədə məlumat vermişdir. O, qeyd etmişdir ki, sənəd fərdi sahibkarlar üçün icazə verilən bir çox fəaliyyət növlərinə tənqidi yanaşılmasını təklif edir: fərdi sahibkarların əksəriyyətinə həm də muzdlu işçi götürməyə icazə verilir.

Bundan əlavə, sadələşdirilmiş vergi sisteminin ləğv edilməsi planlaşdırılır. Müstəqil vergilər kimi vahid torpaq vergisi və hüquqi şəxs yaratmadan fiziki şəxslər tərəfindən həyata keçirilən sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növləri üzrə sabit vergi saxlanılacaq.

# Rusiyada «Tax free» işə düşüb

Rusiyanın sənaye və ticarət naziri Viktor Yevtuxov bildirmişdir ki, bu sistem aprelin 10-dan Moskva, Sankt-Peterburq və Soçi şəhərlərində tətbiq edilməyə başlamışdır. Futbol üzrə dünya çempionatının keçiriləcəyi digər şəhərlərdə - Volqoqradda, Saranskda, Rostovda, Kalininqradda, Kazanda, Samarada, Nijnıy Novqorodda və Yekaterinburqda isə «Tax free» çempionatın başlanması ərəfəsində işə salınacaq.

Sənaye və Ticarət Nazirliyinin planına əsasən, pilot layihənin özünü doğruldacağı halda, 2018-ci ilin sonunda «Tax free» sisteminin Rusiyanın bütün ərazisində yayılması barədə qərar verəcək.




## krossvord

**Yuxarıdan aşağı:** 1.Rusiya Federasiyasının paytaxtı; 2.Kimyəvi element; 3.Meksikada bələdiyyə; 4.Qabaqcadan hazırlanmış suallara cavab almaq üçün sorğu vərəqəsi; 5.Fiqurlu konkisürmədə ən sadə tullanma; 6.Döyüş əməliyyatlarının aparılması və yerdəyişmə üçün minik atlarından istifadə edilən qoşun növü; 9.Kişi adı; 13.İtaliya bəstəkarı Cüzeppe Verdinin populyar opera əsəri; 15.Tərcümədə «ağ dağ» mənasını verən kristal massiv - Alp dağ sisteminə daxil olan Qərbi Alp dağlarında yerləşir; 16.Şərqdə ilk opera («Gəlin qayası») yazan bəstəkar qadın. Azərbaycanın xalq artisti, populyar mahnı və romansların, operetta və pyeslərin müəllifinin adı; 17.Hollivud ulduzu, ABŞ-ın Kaliforniya ştatının keçmiş qubernatorunun adı; 18.Qədim Misir mifologiyasına görə qoruyucu tanrı (başı insan, bədəni şir); 20.Açıq, aşkar, gözlə görünən, göz qabağında olan; 21.Sibir və Kazan xanı (1496-1497).

**Soldan sağa:** 1.Dağıstan Respublikasının paytaxtı; 5.Rusiya Federasiyasının Perm vilayəti ərazisində çay; 7.Yunanıstanın ikinci böyük şəhəri; 8.Yanma zamanı çıxan od; 10.Rusiya Federasiyasının Sverdlovsk vilayəti ərazisində çay; 11.Abşeron ərazisində yerləşən, bütün Şərqdə nadir gözəlliyi ilə diqqəti cəlb edən, yaşı bir əsrdən çox olan məscid; 12.Türk mifologiyasında od tanrısı (xan); 14.Moskvanın mərkəzində tarixi komleks; 19.Kişi adı; 21.Yazıçı, nasir, tərcüməçi, geologiya-mineralogiya elmləri namizədi (1942), dosent, əməkdar mədəniyyət xadimi. «Fırtına», «Zirvələrdə», «Dağalar qoynunda» və s. əsərlərin müəllifinin adı; 22.Azərbaycanla qonşu dövlət; 23.Kəskin boğucu iyi olan dezinfeksiya maddəsi; 24.Qohumluq dərəcəsi; 25.Egey dənizin cənub-şərqində, Yunanıstana məxsus arxipelaq. Tərcümədə lon iki ada» mənasını verir.



Abşeron ərazisində yerləşən məscid

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Mədinə; 2.Liliput; 3.Kamil *(Cəlilov)*; 4.Əlamət; 5.Mazaçço; 6.Durov *(Lev)*; 7.Renons; 13.Amur; 15.Buddizm; 16.Ekstaz; 17.Turneb *(Adrian)*; 18.Rəhman; 20.Nyerd; 21.Cavid. **Soldan sağa:** 1.Məlikməmməd; 8.Dilemma; 9.Zarin; 10.Nepal; 11.Ərçivan; 12.Strax; 14.Lobbi; 19.Kenquru; 21.Ciddə; 22.Tven *(Mark)*; 23.Anevrizm; 24.Zod; 25.Ombudsman.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Təmsilçimiz ən yaxşı dağ velosipedçisi tituluna sahib oldu

**Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku» Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı Mərakeş Turunda çıxış edir. 10 günlük yarışın 4-cü mərhələsi komandamız üçün uğurlu nəticə ilə yadda qalıb.**



Azərbaycan Velosiped İdmanı Federasiyasının yaydığı məlumata görə, yarışın ən ağır dağ mərhələsi hesab edilən 193 kilometrlik məsafə üzrə ölkəmizin elit yığma komandasının üzvü Samir Cəbrayılov dağ finişlərində hamıdan yaxşı çıxış edib. Bununla da velosipedçimiz Mərakeş Turunun 4-cü günündə ən yaxşı dağ velosipedçisi üçün nəzərdə tutulan xüsusi köynəyi ələ keçirib.

Dördüncü mərhələ, həmçinin, Azərbaycanın elit yığmasının digər üzvü Kiril Pozdnyakovun 193 kilometrlik məsafəni 3-cü sırada tamamlaması ilə yadda qalıb. Finişi 4 nəfərlik qrupda başa vuran təmsilçimiz 4 saat, 39 dəqiqə 59 saniyə nəticə göstərib və yalnız fotofinişə əsasən üçüncü olub. Bununla da K.Pozdnyakov ümumi təsnifatda 13 pillə irəliləməklə 3-cü yerə yüksəlib.

Qeyd edək ki, «Synergy Baku» bu yarışda Samir Cəbrayılov, Elçin Əsədov, Kiril Pozdnyakov, Aleksandr Polivoda, Ənvər Asanov və Elgün Əlizadə ilə təmsil olunur.

# Velosiped idmanı üzrə paytaxt çempionatına yekun vurulub

**Azərbaycan Velosiped İdmanı Federasiyasının təşkilatçılığı ilə fərdi və kriterium ötüşməsi üzrə Bakı çempionatı keçirilib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə birgə keçirilən yarışda klub və cəmiyyətlərin 70-ə yaxın idmançısı mübarizə aparıb.**

Qala qəsəbəsində təşkil olunan fərdi ötüşmədə Respublika Olimpiya Ehtiyatları Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin (ROEİUGVİM) üzvləri Nəcəf Bağırov, Nikita Sitov, Kamran Mirzəxanov və Ayan Xankişiyeva müvafiq olaraq Gənclər, U-17, U-15 və qızların mübarizəsində birinci yeri tutublar. Yalnız 15 yaşadək qızlar arasında 1-ci yerə 7 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin (7 İOEUGİM) təmsilçisi İradə Abdurəhimova layiq görülüb.

Veloparkda keçirilən kriterium ötüşməsinə gəlincə, burada Respublika Olimpiya Ehtiyatları Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin velosipedçiləri Əli Qurbanov, Nikita Sitov və Ayan Xankişiyeva digər rəqiblərindən daha yaxşı nəticə göstəriblər. Qaliblər Azərbaycan Velosiped İdmanı Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

# «Roma»dan katalonlara sərt sillə...

## «Real» son anda məğlubiyyətdən xilas oldu



Futbol üzrə UEFA Çempionlar Liqasının dörddəbir final mərhələsinə yekun vurulub. Turun sensasiyası Romada qeydə alınıb. Səfərdə «Barselona»ya 1:4 hesabı ilə məğlub olan «Roma» aprelin 10-da öz meydanında bu məğlubiyyətin əvəzini çıxıb. Di Françeskonun yetirmələri turnirin favoritlərindən hesab edilən «Barselona»nın qapısından üç cavabsız top keçirərək adlarını yarımfinala yazdırıblar. Günün digər matçında isə «Mançester Siti» ilə «Liverpul» üz-üzə gəlib. Öz meydanında rəqibinə 3:0 hesabı ilə qalib gələn mersisaydlılar cavab qarşılaşmasında da «Mançester Siti»yə heç bir şans verməyiblər. Yurgen Klopun yetirmələri bu dəfə 2:1 hesablı qələbəyə seviniblər.

Aprelin 11-də sonuncu iki yarımfinalçı da müəyyənləşib. Günün ən maraqlı qarşılaşması «Real» klubu ilə Turinin «Yuventus» komandası arasında oynanılıb. «Santyaqo Bernabeu» stadionunda keçirilən görüşdə italiyalılar ev qarşılaşmasında 0:3 hesablı məğlubiyyətin əvəzini çıxmaq üçün inamlı oyun nümayiş etdirərək madridlilərin qapısından üç top keçiriblər. Görüşün əsas vaxtına əlavə edilmiş son dəqiqəsində isə hakimin «Yuventus»un qarşısına təyin etdiyi şübhəli 11 metrlik cərimə zərbəsi madridliləri xilas edib: penaltini dəqiq yerinə yetirən Kriştianu Ronaldu komandasının yarımfinala yüksəlməsini təmin edib.

Günün digər qarşılaşmasında isə Almaniyanın «Bavariya» və İspaniyanın «Sevilya» komandaları üz-üzə gəliblər. Münxenlilər «Sevilya»da keçirilən ilk oyunda 2:1 hesabı ilə qalib gəldiklərindən doğma meydanda qolsuz heç-heçəyə nail olmaqla yarımfinala yüksəliblər.

Qeyd edək ki, UEFA Çempionlar Liqasının yarımfinal mərhələsinin püşkü bu gün atılacaq.

# Cüdoçumuz erməniyə heç bir şans vermədi

Azərbaycan cüdoçusu Zelim Kotsoyev (100 kq) Antalyada keçirilən Qran-Pri turnirinin final qarşılaşmasında Rusiya cüdoçusu Armen Adamyan üzərində vaxtından əvvəl qələbə qazanaraq qızıl medala sahib olub.

Z.Kotsoyev ilk iki qarşılaşmada koreyalı Qu-Xam Ço və özbək Məhəmmədkərim Hürrəmova ipponla qalib gəlib. Daha sonra «vadza-ari» qiymətləndirilməsi ilə İrlandiya cüdoçusu Bencamin Fletçer üzərində qələbə qazanan cüdoçumuz yarımfinalda rusiyalı Niyaz İlyasovu təmiz qələbə ilə məğlub edib.

Məmmədəli Tağıyev və Tural Səfquliyevin (hər ikisi - 90 kq) yarımfinalda yolları oxşar olub - hər iki cüdoçumuz təmiz tullama ilə qalib gəlib. Məmmədəli braziliyalı Qustavo Assis və israilli Li Koçmanı, Tural isə İsrail idmançısı Asaf Çen və monqolustanlı Altanbaqana Qantulqanı üstələyib. Lakin yarımfinalda məğlub olan cüdoçularımız «bürünc» uğrunda şanslarını əldən verməyiblər: Səfquliyev «vadza-ari» qiymətləndirilməsi hesabına israilli Li Koçmana qalib gəlib, Mehdiyev isə braziliyalı Rafael Maçedo ilə qarşılaşmada ippon qazanıb.

## mozaika

texnologiya

# Biometrik texnologiyaların tətbiqi sahəsində dünya lideri



«Maliyyə xidmətləri sahəsində liderlər» adlı beynəlxalq tədqiqatın nəticələrinə görə, Sinqapur maliyyə xidmətləri sektorunda biometrik texnologiyaların (müştərilərin şəxsiyyətinin barmaq izinə görə müəyyənləşdirilməsi) tətbiqi sahəsində dünya lideridir. Sorğuda Sinqapur, Çin, Böyük Britaniya və ABŞ-dan olan 315 şirkət iştirak edib.

Sinqapurun maliyyə şirkətlərinin 61 faizindən çoxu müştərilərin barmaq izlərini nəzərə alan ikifaktorlu eyniləşdirmədən istifadə edir. Çin bu texnologiyanın yayılma dərəcəsinə görə ikinci yeri tutub (57 faiz). Biometrik texnologiyalardan istifadə Avstraliyada 50 faiz, Böyük Britaniyada 40 faiz, ABŞ-da isə 37 faiz təşkil edib.

Tədqiqatlar göstərib ki, müştərilərin biometrik eyniləşdirilməsi texnologiyası bütün dünyanın maliyyə şirkətləri arasında geniş yayılıb, lakin bu sahədə birincilik Sinqapura məxsusdur.

mədəniyyət

# Ayla beynəlxalq müsabiqədə birinci yeri tutub



Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyasının VII sinif şagirdi, Xalq Artisti Fidan Hacıyevanın Vokal Musiqi Məktəbində vokal dərsləri alan Ayla Kəlbiyeva bu günlərdə Almaniyanın Baden-Vürtemberq şəhərində pianoçuların «Musical Fireworks» beynəlxalq müsabiqəsində birinci yerə layiq görülüb. «Almaniyada beynəlxalq fortepiano müsabiqəsi bir neçə yaş kateqoriyasında keçirilib.

«Müsabiqə çox çətin idi. Türkiyə, ABŞ, Rusiya, Ukrayna, Belarus və digər yerlərdən istedadlı fortepianoçular gəlmişdilər. Münsiflər heyətində məşhur professorlar təmsil olunurdular. Onların sırasında «Zolotaya muza», «Svyataya Sofiya» (Bolqarıstan) mükafatları laureatı, bir çox ölkələrdə ustad dərsləri keçən Tamara Poddubnayanı xüsusilə qeyd etmək istəyirəm.

Müsabiqədə görkəmli bəstəkar Q.Qarayevin «Lay-lay» əsərini, F.Mendelsonun «Sözsüz mahnı», Y.Haydnın «Sonata»sını ifa etdim. İfa üçün yeddi əsər hazırlamışdım. Almaniyadakı müsabiqə əslində iki turdan ibarət idi; birinci tur Tenerifedə (İspaniya) olmuşdu», - Ayla Kəlbiyeva bildirib.

«Aylanın Almaniyadakı uğurundan qürur duyuruq. O, gələcəkdə həm solo, həm də konsertmeyster kimi çıxış edə bilər», - deyən Xalq Artisti Fidan Hacıyeva gələcəkdə onunla bir yerdə konsert vermək planı olduğunu da bildirib.

Professor Tamara Poddubnaya Aylanı Nyu-Yorkda «Long Island Conservatory of Music»ə dəvət edib. Bu konservatoriyaya xüsusi istedadı olan uşaqlar qəbul olunur. Aylaya isə həmin konservatoriyaya imtahansız qəbul olunmaq və ödənişsiz təhsil almaq təklif edilib.

Həmkarımızın yaradıcılığı

# Onun rənglər dünyası



Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması departamentinin Əməliyyat idarəsinin rəis müavini, baş ədliyyə müşaviri Nəsimi Əhədovun olduqca maraqlı həyat yolu var. O, Əzim Əzimzadə adına rəssamlıq məktəbinin məzunudur. Rusiya Federasiyasının mədəniyyət paytaxtında - Sankt-Peterburqda İ.Repin adına Rəssamlıq İnstitutunun dinləyicisi olub, 1996-cı ildə isə Aleksandr Gertsen adına Rusiya Dövlət Pedaqoji Universitetini bitirib. 2000-ci ildə Sankt-Peterburq şəhərində Rusiya Federasiyası Baş Prokurorluğunun Dövlət Hüquq İnstitutunu bitirərək hüquqşünas ixtisası alıb. 2000-ci ildən Azərbaycanda vergi sistemində çalışır.

Vergi orqanında işlərinin çoxluğuna, vaxt qıtlığına baxmayaraq, özünün qeyri-adi rənglər dünyasına da sadiqdir - rəsm yaradıcılığını davam etdirir. Bu da çox əlamətdardır ki, N.Əhədovun əsərləri yalnız dost-tanışların əhatə dairəsinə qapanıb qalmır, Azərbaycan sərhədlərindən kənarda da ciddi maraq doğurur. Bu il mart ayının 23-də Almaniyanın Köln şəhərində, «Altes-Phanhaus» sənət qalereyasında açılmış beynəlxalq sərgidə onun da əsərləri nümayiş etdirilib. Sərgidə 12 ölkədən 28 rəssamın rəngkarlıq, heykəltəraşlıq, qrafika və başqa janrlarda əl işləri mümayiş olunur. Köln şəhər mədəniyyət departamentinin, Almaniyada təsis edilmiş və orada fəaliyyət göstərən «Zarifa-art» incəsənət mərkəzinin təçkilatçılığı ilə keçirilmiş bu sənət sərgisində ölkəmizi Nəsimi Əhədov, Marqarita Kərimova-Sokolova və Nataliya Kin təmsil edib. Sərgidə N.Əhədovun «Mələk» və «Məhəbbət» adlı kompozisiyaları, «Yay natürmortu», «Şəhər meydanı», «Köln dom», «Nürnberq gecə», «İstanbul» adlı mənzərələri nümayiş etdirilib. Əsərlər sərgiyə gələn sənətsevərlər tərəfindən yüksək qiymətləndirilib.

Onun rənglər dünyasının səyahəti isə davam edəcək: aprelin 21-dən iyulun 15-dək Almaniyanın Ervitte-Horn şəhərində keçiriləcək «Sərhədsiz» adlı beynəlxalq sərgidə N.Əhədovun 12 əsəri nümayiş olunacaq.

İndi ciddi islahatlar aparılan vergi sistemində tutduğu məsul vəzifədə, rəsm yaradıcılığında və şəxsi həyatında Nəsimi müəllimə böyük uğurlar arzulayırıq.







**Müdriklər deyib ki...**

*«Ağıllı adam sözdən incimir, nəticə çıxarır».*

*Aqata Kristi (1890-1976)*

